RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 163 (8479) ÇƏRŞƏNBƏ, 19 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edir

**Azərbaycan Ordusu döyüş meydanında nəyə qadir olduğunu Tovuz döyüşlərində bir daha nümayiş etdirdi. Ermənistanın siyasi-hərbi rəhbərliyi də bir daha dərk etdi ki, respublikamızın qarşısında kifayət qədər zəif və cılızdırlar. Ordumuzun bu zəfəri artan hərbi gücümüzün Aprel döyüşlərindən sonra növbəti təsdiqi oldu.**

### Ermənistanı küncə sıxışdıran hücum diplomatiyası

Tovuz döyüşlərindən sonra beynəlxalq ictimaiyyətdən gələn reaksiyalar bir çox mətləblərə yeni işıq saldı ki, bunlardan biri də Azərbaycanın müstəqil siyasət yürüdən dövlət olmasıdır. Bu siyasətin nəticəsi idi ki, ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar respublikamızın ədalətli mövqeyini birmənalı şəkildə dəstəkləyən qətiyyətli bəyanatlar verdilər. BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu Ermənistanın təxribatı ilə bağlı kommünike qəbul etdi. İslam Konfransı Təşkilatı, Türk Şurası Ermənistanın işğalçı siyasətini qətiyyətlə pislədilər.

Erməni təəssübkeşliyinin güclü olduğu Qərb ölkələrindən Ermənistanı müdafiə edən hansısa fikir eşidilmədi. Ermənistanın təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da onu müdafiə edən hansısa bəyanat vermədi.

Təbii ki, beynəlxalq səviyyədə əldə olunan hər bir uğurun kökündə Azərbaycanın yürütdüyü müstəqil siyasət, Prezident İlham Əliyevin müəyyən etdiyi hücum diplomatiyasının inamla həyata keçirilməsi dayanır. Bu siyasət sürətlə öz hədəflərinə doğru irəliləyir, ayrı-ayrı dövlətlərin, təşkilatların, dövlət və siyasi xadimlərin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminə olan baxışlarını dəyişərək, onların baş verənlərə obyektiv münasibət bildirmələrinə səbəb olur. Nəticə etibarilə bütün bunlar torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində aparılan danışıqlarda Azərbaycanın siyasi və hüquqi baxımdan mövqelərini möhkəmləndirən mühüm amillərdir.

### Hər bir məsələ dövlət başçısının xüsusi nəzarətindədir

Bütövlükdə Azərbaycanın xarici siyasət kursunun ən mühüm reallığı odur ki, Prezident İlham Əliyev beynəlxalq arenada ölkəmizin milli maraqlarını qətiyyətlə və xüsusi prinsipiallıqla müdafiə edir. Prezident İlham Əliyevin bir neçə gün əvvəl Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınması ilə bağlı Rusiya Prezidenti Vladimir Putinlə apardığı telefon danışığı bir daha göstərdi ki, Azərbaycanın milli maraqlarına təsir edən hər bir məsələ dövlət başçısının xüsusi nəzarətindədir və bununla əlaqədar istənilən ölkə və beynəlxalq qurum qarşısında qətiyyətlə məsələ qaldıra bilir.

Qeyd edək ki, telefon danışığı zamanı İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində baş vermiş toqquşmalar başa çatandan sonra iyulun 17-dən bu günə kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter almasının Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu Rusiya Prezidentinin diqqətinə çatdırmışdır. Cənab Prezident Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmadan dərhal sonra Rusiyadan Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edərək bu günə qədər Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcminin 400 tondan artıq olduğunu bildirmiş və telefon zənginin əsas məqsədinin bu məsələnin aydınlaşdırılması olduğunu vurğulamışdır.

Ardı 3-cü səh.

# Azərbaycan ticari-iqtisadi sahədə MDB məkanında Özbəkistanla strateji tərəfdaşdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Özbəkistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin və əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə etdi. Ölkələrimiz arasında fəal siyasi dialoqun aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın Özbəkistanla beynəlxalq təşkilatlar, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində yaxından əməkdaşlıq etdiyini bildirdi. Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sammitində iştirakının əməkdaşlığımızın inkişafına mühüm töhfə verdiyini qeyd etdi. Prezident İlham Əliyev bu səfər çərçivəsində Özbəkistan dövlətinin başçısı ilə iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, kənd təsərrüfatı, o cümlədən pambıqçılıq və digər sahələrdə də əməkdaşlığa dair səmərəli müzakirələrin aparıldığını vurğuladı.

Koronavirus pandemiyası ilə əlaqədar Özbəkistana nəzərdə tutulmuş səfərinin təxirə salındığını qeyd edən Prezident İlham Əliyev epidemioloji vəziyyət imkan verən kimi qardaş Özbəkistana səfər edəcəyini bildirdi.

Prezident İlham Əliyev bu il iyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzü ilə əlaqədar İslam Əməkdaşlıq Təşkilatı və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində müvafiq bəyanatların qəbul edilməsinə üzv dövlət olaraq Özbəkistanın verdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Ardı 2-ci səh.

# Ermənistanın növbəti həyasızlığı

Bu yaxınlarda ictimaiyyət üçün açıqlanan Ermənistanın "yeni milli təhlükəsizlik strategiyası" ilə bağlı sənəd bu ölkənin işğalçı mahiyyətini və erməni xislətini bir daha nümayiş etdirmişdir. Məlum olur ki, bu sənəd həm hazırlanması formatına, həm də milli təhlükəsizliklə bağlı məsələlərə mifik erməni tarixindən yanaşıldığına görə qüsurlu və ziddiyyətli xarakter daşıyır.

Sənədin giriş hissəsində Ermənistanın baş naziri N.Paşinyan qondarma erməni tarixinə və "soyqırımı"na istinadlar edir, ermənilərin qonşu dövlətlərə qarşı ərazi iddialarına bəraət qazandırmağa çalışır, "məxməri inqilab" vasitəsilə hakimiyyəti ələ keçirdikdən sonra guya Ermənistanın həyat tərzinin dəyişdiyini bildirir.

Beynəlxalq praktikaya görə, bu cür sənədlərdə hakimiyyətdə olan hansısa siyasi qüvvə təbliğ edilmir və orada dövlətin ümumi, uzunmüddətli təhlükəsizliklə bağlı baxışları öz əksini tapır. N.Paşinyanın yanaşması isə belə bir ənənənin əsasını qoyur ki, Ermənistanda hakimiyyətlər dəyişdikcə iqtidara gələn qüvvələrin hər biri "milli təhlükəsizlik strategiyası" adı altında özlərinin siyasi partiya və yaxud fraksiya maraqlarından çıxış edərək korporativ təbliğatla məşğul olacaqlar.

Ermənistanın milli təhlükəsizlik strategiyasında şovinist, ksenofob və irqçi baxışlar, erməni xalqının "böyüklüyü", onun digər xalqlardan "üstün olması" kimi faşizmi təbliğ edən iddialar özünü açıq şəkildə büruzə verir. Sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranması səbəbləri və problemin həlli istiqamətində aparılan danışıqların mahiyyəti saxta arqumentlərlə təhrif edilir. Bir daha aydın olur ki, Ermənistan yeni "strategiyasında" BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrindəki tələblərə, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi prinsiplər çərçivəsində həlli ilə bağlı ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı kimi qurumların qəbul etdikləri sənədlərə laqeyd münasibət göstərir.

N.Paşinyanın "strategiyasında" Dağlıq Qarabağdakı qondarma qurumun öz müqəddəratını təyinetmə hüququnun qeyd-şərtsiz tanınması iddiasının irəli sürülməsi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal faktını ört-basdır etmək məqsədi daşıyır.

Ardı 4-cü səh.

# Epidemiya əleyhinə karantin rejiminin tələblərinə ciddi əməl edilməlidir

### Bununla bağlı aidiyyəti qurumlar tərəfindən fəaliyyətinə icazə verilmiş sahələrə nəzarət gücləndirilib

Dünyada COVID-19-a yoluxanların sayı 22 milyon nəfəri keçib, xəstəlikdən ölənlərin sayı isə 777 mindən çoxdur. Koronavirusa yoluxma sayına görə, ABŞ, Braziliya və Hindistan ilk üçlükdə yer alır.

Göründüyü kimi, təhlükəli infeksiya görülən bütün tədbirlərə rəğmən sürətlə yoluxma zəncirini artırmaqda davam edir. O da reallıqdır ki, dünya hazırda pandemiya ilə bağlı hansı mübarizə formasından istifadə etməyi araşdırmaqda davam edir.

Bir müddət əvvələ qədər ən təsirli mübarizə üsulunun karantin rejimi olduğu bildirilsə də, hazırda bu çıxış yolunun iqtisadi fəlakətlərə yol açacağı barədə fikirlər səsləndirilir. Ümumdünya Səhiyyə Təşkilatının baş epidemioloqu Maria van Kerkxov ikinci və sonrakı COVID-19 dalğalarında karantinin yolverilməz olduğunu bəyan edib.

Ardı 6-cı səh.




# BTC neft daşımalarını artırır, ekoloji riskləri azaldır

Bu ilin birinci yarısında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri ilə təqribən 15 milyon ton (113 milyon bareldən artıq) xam neft və kondensat ixrac edilib. Bu karbohidrogenlər Ceyhanda 145 tankerə yüklənib.

Hazırda BTC ilə əsasən Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neft və "Şahdəniz"dən əldə olunan kondensat nəql edilir. Bundan əlavə, kəmərə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti vurulur.

BTC Azərbaycanın neft strategiyasının ayrılmaz hissəsidir. Bu boru xətti ilə qapalı hövzə olan Xəzər dənizindən dünya bazarlarına tamamilə yeni bir marşrut açılıb. Başqa sözlə, BTC beynəlxalq bazarlara təhlükəsiz və etibarlı çıxışı təmin edən bir marşrutdur və regionun enerji ixracının başlıca arteriyası sayılır.

Ardı 3-cü səh.

# Ermənistanın təcavüzkar siyasəti növbəti dəfə ifşa edildi

### Yerevanın əsl niyyəti öz işğalçı siyasətini gizlətmək, digər ölkələrə qarşı yalan və saxta ittihamlar irəli sürməkdir

Azərbaycan və Türkiyə qardaşlıq münasibətlərindən irəli gələrək bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər.

Dünya siyasi düzəninin indiki şəraitində isə hər iki ölkənin bölgədə və dünyada gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birilərinin maraqlarını müdafiə etmələri daha mühüm əhəmiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, Azərbaycan və Türkiyənin siyasi rəhbərliyi indiki şəraitdə daha prinsipial mövqe nümayiş etdirir.

Belə vəziyyətdə hər iki ölkə onların milli maraqlarına xələl gətirəcək istənilən hala qarşı vahid mövqe sərgiləməklə də birliklərinin sarsılmaz olduğunu bütün dünyaya əyani nümayiş etdirirlər. Azərbaycanla Türkiyə Ermənistanın işğalçı siyasətinin ifşa edilməsi, ermənilərin yalanlarının qarşısının alınması və bu məqsədlə ermənilərin planlaşdırdıqları tədbirlərə diqqəti heçə endirmək üçün hücum diplomatiyasını uğurla və əzmlə həyata keçirirlər.

Ardı 7-ci səh.

# Azərbaycan ticari-iqtisadi sahədə MDB məkanında Özbəkistanla strateji tərəfdaşdır



Əvvəli 1-ci səh.

Dövlət başçısı digər sahələrlə bərabər, nəqliyyat-logistika sahəsində ölkələrimiz arasında əməkdaşlıqda yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi.

Ölkələrimiz arasında əməkdaşlığın xalqlarımızın qardaşlıq əlaqələrinə əsaslandığını qeyd edən Prezident İlham Əliyev Özbəkistanla münasibətlərin bütün sahələrdə inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı.

Səfir Bahrom Aşrafxanov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin ən səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilmiş sammitində Özbəkistan Prezidentinin iştirakının və bu çərçivədə dövlət başçıları səviyyəsində görüşlərin ikitərəfli əlaqələrimizin inkişafına mühüm təkan verdiyini qeyd etdi.

Səfir, eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğur qazandığını və digər ölkələr üçün örnək olduğunu vurğulayaraq, Özbəkistanın Azərbaycanın qabaqcıl təcrübəsindən bəhrələndiyini, "ASAN xidmət" nümunəsində ölkəsində Dövlət Xidmətləri üzrə Agentliyin yaradıldığını bildirdi.

Ölkələrimiz arasında yaxşı münasibətlərin olduğunu qeyd edən səfir Özbəkistanın Azərbaycanla ticari-iqtisadi əlaqələrin inkişafına böyük önəm verdiyini və Azərbaycanın bu sahədə MDB məkanında Özbəkistan üçün strateji tərəfdaş olduğunu dedi. Eyni zamanda səfir kənd təsərrüfatı, xüsusilə də fındıqçılıq və narçılıq sahələrində Azərbaycanın təcrübəsinin Özbəkistan üçün maraqlı olduğunu bildirdi.

Səfir koronavirus pandemiyası ilə bağlı karantin tədbirlərinin yaxın vaxtlarda sona çatacağına və Azərbaycan Respublikası Prezidentinin Özbəkistana səfər edəcəyinə ümidvar olduğunu ifadə etdi. Bu səfərin əməkdaşlığımızın genişlənməsi və dərinləşməsinə yeni bir təkan verəcəyinə əminliyini bildirdi. Səfir Özbəkistanın Azərbaycanla nəqliyyat-logistika sahəsində əməkdaşlığa, Xəzər dənizi vasitəsilə Azərbaycanı və Mərkəzi Asiya ölkələrini birləşdirən nəqliyyat dəhlizinə və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdırdı.

Bahrom Aşrafxanov Özbəkistanın Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini daim dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi birmənalı dəstəyinə görə Özbəkistana təşəkkürünü bildirdi.

Dövlət başçısı Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Özbəkistanın Prezidentinə çatdırmağı xahiş etdi.

## Əfqanıstan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd Əşrəf Qaniyə

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Əfqanıstan dostluq və tərəfdaşlıq münasibətləri, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrimiz bundan sonra da xalqlarımızın rifahı naminə genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Əfqanıstan xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 avqust 2020-ci il*

## "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət informasiya sistemlərinin və ehtiyatlarının mərhələli şəkildə "Hökumət buludu"na Keçid Planını Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təklifləri əsasında bir ay müddətində təsdiq etsin.

2. "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1010) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.3-cü bənddə "bu Fərmanın 8.1-ci bəndində qeyd edilən" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi" sözləri ilə əvəz edilsin;

2.2. 8.1-ci bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.11-1-ci yarımbənd əlavə edilsin:

"3.1.11-1. dövlət qurumları tərəfindən dövlət informasiya ehtiyatları və sistemlərinin "Hökumət buludu"nda formalaşdırılması, aparılması və təkmilləşdirilməsi, o cümlədən elektron xidmətlərin təşkili və göstərilməsi ilə bağlı dəstək tədbirləri görmək;".

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027, № 11, maddə 1702, № 12, maddə 1929; 2020, № 3, maddə 231, № 4, maddə 407) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1.aşağıdakı məzmunda 2.0.17-1-ci, 3.0.78-1-ci, 3.0.79-1-ci, 3.0.79-2-ci və 3.0.79-3-cü yarımbəndlər əlavə edilsin:

"2.0.17-1. "Hökumət buludu"nun fəaliyyətini və istifadəsini təşkil edir;";

"3.0.78-1. "Hökumət buludu"nun idarə olunmasını və fəaliyyətinin təşkilini təmin etmək;";

"3.0.79-1. dövlət informasiya ehtiyatları və sistemlərinin Nazirliyin Data Mərkəzində saxlanılmasını, həmçinin "Hökumət buludu"ndan istifadəni təşkil etmək;

3.0.79-2. Nazirliyin Data Mərkəzində, eləcə də "bulud" texnologiyasına əsaslanan "bulud" xidmət modellərində dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması və aparılmasını, habelə elektron xidmətlərin təşkili üçün texnoloji mühiti təmin etmək;

3.0.79-3. "Hökumət buludu"nun təhlükəsizliyinin təmin edilməsi üçün aidiyyəti dövlət orqanı ilə birlikdə tədbirlər görmək;";

2.2. 3.0.79-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.79. "Hökumət buludu"nun yaradılması vasitəsilə dövlət qurumlarının informasiya ehtiyatları və sistemlərinin istismarı, bunun üçün tələb olunan infrastrukturun qurulması və standartların formalaşdırılması sahəsində aidiyyəti dövlət qurumları ilə birlikdə tədbirlər görmək;".

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1826) ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na aşağıdakı məzmunda 1.8-ci bənd, 6.0.2-1-ci və 7.1.3-1-ci yarımbəndlər əlavə edilsin:

"1.8. Dövlət informasiya ehtiyatları və sistemləri "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanında nəzərdə tutulmuş Keçid Planına uyğun olaraq mərhələli şəkildə "Hökumət buludu"nda yerləşdirilir, aparılır və Data Mərkəzində saxlanılır.";

"6.0.2-1. dövlət informasiya ehtiyatı və sisteminin bu Qaydaların 1.8-ci bəndinə uyğun olaraq mərhələli şəkildə "Hökumət buludu"nda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini, o cümlədən elektron xidmətlərin təşkilini və göstərilməsini təmin etmək;";

"7.1.3-1. dövlət qurumları tərəfindən dövlət informasiya ehtiyatlarının və sistemlərinin bu Qaydaların 1.8-ci bəndinə uyğun olaraq mərhələli şəkildə "Hökumət buludu"nda formalaşdırılması, aparılması və təkmilləşdirilməsi, o cümlədən elektron xidmətlərin təşkili və göstərilməsi ilə bağlı dəstək tədbirləri görmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2020-ci il*

## "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarış"ın məzmunu"nun təsdiq edilməsi və "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın və "Torpaq sahəsinin planı və ölçüsü"nün təsvirlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli 553 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarış"ın məzmunu" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın və "Torpaq sahəsinin planı və ölçüsü"nün təsvirlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli 553 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 709; 2017, № 3, maddə 371; 2018, № 1, maddə 49, № 2, maddə 204; 2019, № 4, maddə 618) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adından "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın və" sözləri çıxarılsın və adında "təsvirlərinin" sözü "təsvirinin" sözü ilə əvəz edilsin;

2.2. 1-ci hissə ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarış "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Elektron hökumət" İnformasiya Sistemində (bundan sonra - informasiya sistemi) yerləşdirildikdən sonra elektron çıxarışın məzmununda hər hansı dəyişiklik edilərkən, həmin informasiya sistemində ilk dəfə yerləşdirilən elektron çıxarışda edilmiş dəyişikliklərin ardıcıllığını və məzmununu hüquq sahibinin elektron qaydada müşahidə etməsi imkanının yaradılması üçün üç ay müddətində zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. daşınmaz əmlakın dövlət reyestrindən kağızda verilmiş çıxarışların elektron formada tərtib edilməsini və həmin nazirlik yanında Əmlak Məsələləri Dövlət Xidmətinin vəzifəli şəxslərinin gücləndirilmiş elektron imzası ilə təsdiqlənməklə informasiya sistemində yerləşdirilməsini 2022-ci il yanvarın 1-dək təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. daşınmaz əmlakın dövlət reyestrindən kağızda verilmiş çıxarış bu Fərmanın 4.1-ci bəndi icra olunanadək itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə, hüquq sahibinin ərizəsi əsasında çıxarışın elektron formada tərtib edilərək informasiya sistemində yerləşdirilməsi və hüquq sahibinin həmin çıxarışı elektron üsulla real vaxt rejimində əldə etməsi imkanının yaradılması üçün tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir

## "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarış"ın məzmunu

### 1. Ümumi müddəalar

1.1. Bu sənəd, növündən asılı olmayaraq daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsinin və başqasına keçməsinin dövlət qeydiyyatının rəsmiləşdirilməsi məqsədilə tərtib edilən hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən (bundan sonra - dövlət reyestri) elektron çıxarışın məzmununu müəyyən edir.

1.2. Dövlət reyestrindən elektron çıxarışı dövlət reyestrində saxlanılan məlumatlar əsasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra - Dövlət Xidməti) Azərbaycan Respublikasının dövlət dilində tərtib edir.

1.3. Dövlət reyestrindən elektron çıxarış daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqları qeydiyyata alındıqda hüquq sahibinə (sahiblərinə) bu sənədlə müəyyən edilən məzmunda verilir.

1.4. Dövlət reyestrindən elektron çıxarış qeydiyyat orqanının vəzifəli şəxslərinin gücləndirilmiş elektron imzası ilə təsdiqlənməklə "Elektron hökumət" İnformasiya Sistemində yerləşdirilir və hüquq sahibinin onu elektron üsulla real vaxt rejimində əldə etməsi imkanı təmin olunur.

### 2. Dövlət reyestrindən elektron çıxarışda göstərilən məlumatlar

2.1. Mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması ilə bağlı təqdim edilən elektron çıxarışda aşağıdakılar göstərilir:

2.1.1. Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri;

2.1.2. Dövlət Xidmətinin adı;

2.1.3. hüququ rəsmiləşdirilən (qeydiyyata alınan) şəxs (şəxslər) haqqında məlumat:

1. fiziki şəxs olduqda - soyadı, adı, atasının adı;

2. hüquqi şəxs olduqda - tam adı (o cümlədən təşkilati-hüquqi forması);

2.1.4. daşınmaz əmlakın növü;

2.1.5. daşınmaz əmlakın ünvanı;

2.1.6. daşınmaz əmlakın mülkiyyət növü;

2.1.7. daşınmaz əmlak üzərində hüququn növü;

2.1.8. daşınmaz əmlakın ümumi sahəsi (kvadratmetrlə);

2.1.9. torpaq sahəsinin mülkiyyət növü;

2.1.10. torpaq sahəsi üzərində hüququn növü;

2.1.11. torpaq sahəsinin kateqoriyası (Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə müəyyən edilmiş kateqoriyalardan biri);

2.1.12. torpaq sahəsinin ölçüsü (hektarla);

2.1.13. daşınmaz əmlakın dövlət reyestr nömrəsi;

2.1.14. daşınmaz əmlakın qeydiyyat nömrəsi;

2.1.15. daşınmaz əmlakın qeydiyyat tarixi;

2.1.16. daşınmaz əmlak ümumi birgə mülkiyyətdə olduqda - hər bir hüquq sahibinin adı, ümumi paylı mülkiyyətdə olduqda isə, əlavə olaraq - hər bir hüquq sahibinin payı;

2.1.17. reyestr kitabının və onun vərəqinin nömrəsi;

2.1.18. dövlət reyestrindən elektron çıxarışı təsdiq edən vəzifəli şəxsin vəzifəsi, gücləndirilmiş elektron imzası, soyadı və adı.

2.2. Digər hüquqların dövlət qeydiyyatı ilə bağlı təqdim edilən elektron çıxarışda bu sənədin 2.1.1-ci, 2.1.2-ci, 2.1.4-cü, 2.1.5-ci, 2.1.11-ci, 2.1.13-cü, 2.1.17-ci və 2.1.18-ci yarımbəndlərində göstərilən məlumatlarla yanaşı, aşağıdakı məlumatlar da göstərilir:

2.2.1. xeyrinə hüquqlar qeydiyyata alınan şəxs (şəxslər) haqqında məlumat:

1. fiziki şəxs olduqda - soyadı, adı, atasının adı;

2. hüquqi şəxs olduqda - tam adı (o cümlədən təşkilati-hüquqi forması);

2.2.2. daşınmaz əmlakın mülkiyyətçisi və ya hüququ yüklü edilən digər şəxs (şəxslər);

2.2.3. üzərində hüquqlar qeydiyyata alınan daşınmaz əmlakın (əmlak hissəsinin) ölçüsü (torpaq sahəsinin ölçüsü - hektarla, digər daşınmaz əmlakın ölçüsü - kvadratmetrlə);

2.2.4. qeydiyyata alınan hüququn növü və müddəti;

2.2.5. əsas öhdəliyin mahiyyəti və icra müddəti (olduqda);

2.2.6. daşınmaz əmlak üzərində qüvvədə olan digər hüquqlar (olduqda).

2.3. İpoteka saxlayanın hüquqları ipoteka kağızı ilə rəsmiləşdirildikdə, ipotekanın dövlət qeydiyyatı zamanı dövlət reyestrindən elektron çıxarışda bu barədə məlumat göstərilir.

2.4. Daşınmaz əmlak ümumi mülkiyyətdə olduğu halda elektron çıxarış hər bir mülkiyyətçiyə təqdim edilir.

# Bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüş keçirilib

Azərbaycan Milli İncəsənət Muzeyində bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi, ziyalılar ilə görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Mədəniyyət nazirinin birinci müavini Anar Kərimov iştirak ediblər.

Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov son illər ölkəmizdə müxtəlif sahələrin, o cümlədən mədəniyyətin inkişafı, vətəndaşların problemlərinin həlli istiqamətində ciddi islahatların həyata keçirildiyini və bununla bağlı reallaşdırılan layihələrə dəstəyin gücləndirildiyini deyib. Anar Ələkbərov COVID-19 pandemiyasının bütün sahələrə olduğu kimi, mədəniyyət sahəsinə də təsirsiz ötüşmədiyini bildirib. Qeyd edib ki, koronavirusun geniş yayılması səbəbindən hazırda bütün dünyada, o cümlədən ölkəmizdə kütləvi tədbirlər keçirilmir. Buna baxmayaraq, Prezident İlham Əliyevin tapşırığına əsasən çoxsaylı mədəni layihələrin icrası davam edir. Anar Ələkbərov bu görüşün əsas məqsədinin mədəniyyət xadimləri ilə fikir mübadiləsi aparmaq, onların təkliflərini dinləyib ölkə rəhbərliyinə çatdırmaq olduğunu bildirib.

Prezidentin köməkçisi dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək olaraq Heydər Əliyev Fondunun fəaliyyətini də qeyd edib. O, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin inkişafı və dünyada təbliği, mədəniyyət obyektlərinin yenidən qurulması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində reallaşdırdığı layihələrdən danışıb. Anar Ələkbərov bildirib ki, bundan sonra görüləcək işlər də artıq müəyyənləşdirilib. Bunlarla bağlı mədəniyyət və incəsənət xadimlərinin fikir və təkliflərinin öyrənilməsi və birgə addımların atılması səmərəli olacaq.

Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Mədəniyyət nazirinin birinci müavini Anar Kərimov yeni yaradılan İctimai Şuranın ictimaiyyət nümayəndələri ilə münasibətlərin genişləndirilməsində faydalı olacağını bildirib.

Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov belə görüşlərin yaradıcı təşkilatların fəaliyyəti üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə təmsil etdiyi qurumun Rusiyada keçiriləcək "Tarixi irsin saxlanılması və istifadəsi" festivalında Azərbaycanın işğal olunmuş ərazilərində memarlıq abidələrimizin vəziyyətinə dair sərgi ilə iştirak edəcəyini deyib. Anar Kərimov isə diqqətə çatdırıb ki, tarixi memarlıq abidələrimizin reyestri sonuncu dəfə 2001-ci ildə aparılıb. Ötən 19 ildə həyata keçirilən arxeoloji qazıntılar nəticəsində yeni abidələr tapılıb. Ona görə də yeni siyahının müəyyənləşdirilməsi istiqamətində artıq işlərə başlanılıb.

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev və digər çıxış edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatları yüksək qiymətləndiriblər. Son vaxtlar cəbhə bölgəsində ordumuzun düşmən təxribatlarının qarşısını almaq üçün göstərdiyi hünər və rəşadət xüsusi qeyd olunub.

Mədəniyyət və incəsənət xadimləri mədəni irsin qorunması, təbliği və təşviqinin genişləndirilməsi ilə bağlı təkliflər səsləndiriblər. Ölkəmizdə müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində görüləcək işlərə dair müzakirələr aparılıb.

Tədbir iştirakçıları belə görüşlərin əhəmiyyətini vurğulayıb, müzakirələr üçün seçilən bu formatın qarşıda duran məsələlərin səmərəli həlli üçün zəruri olduğunu qeyd ediblər.

# Türkiyə mətbuatı Hikmət Hacıyevin açıqlamasına geniş yer verib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistan Xarici İşlər Nazirliyinin Türkiyəyə qarşı ittihamlarla çıxış etməsi ilə bağlı açıqlamasına qardaş ölkənin aparıcı kütləvi informasiya vasitələrində geniş yer verilib.


SABAH SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK

Haberler > Dünya Haberleri > Azerbaycan'dan Doğu Akdeniz faaliyetlerinde Türkiye'ye destek!

Azerbaycan'dan Doğu Akdeniz faaliyetlerinde Türkiye'ye destek!

Azerbaycan Cumhurbaşkanı Yardımcısı ve Cumhurbaşkanlığı Dış Politika Daire Başkanı Hikmet Hacıyev, Azerbaycan'ın Türkiye'nin Doğu Akdeniz'deki faaliyetlerini koşulsuz desteklediğini ifade etti.

İHA

Giriş Tarihi: 17.8.2020 16:32 ABONE OL Google News

Azerbaycan Cumhurbaşkanı Yardımcısı ve Cumhurbaşkanlığı Dış Politika Daire Başkanı Hikmet Hacıyev, Azerbaycan'ın Türkiye'nin Doğu Akdeniz'deki faaliyetlerini koşulsuz desteklediğini ifade etti.

AZƏRTAC xəbər verir ki, yazılarda dövlətimizin başçısının Türkiyə hərbi heyətini qəbul edərkən vurğuladığı "Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur" fikri də əksini tapıb.

Türkiyə mətbuatı yazır ki, Azərbaycan Prezidentinin köməkçisi "Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatlar zamanı qardaş Türkiyənin Azərbaycana verdiyi qəti dəstəyi, ölkəmizdə keçirilmiş birgə hərbi təlimləri, Türkiyənin Müdafiə naziri başda olmaqla, ordu rəhbərliyinin ölkəmizə səfərini yüksək qiymətləndiririk" deməklə ölkələrimizin münasibətlərini dəyərləndirib.

Diqqətə çatdırılır ki, Türkiyə beynəlxalq hüquqa uyğun olaraq, bölgədə öz haqqını, maraqlarını və mənafeyini qoruyur. Azərbaycan qardaş ölkənin Şərqi Aralıq dənizindəki mövqeyini birmənalı dəstəkləyir. Prezidentin köməkçisinin açıqlaması "Anadolu" və "İHA" xəbər agentlikləri, "Sabah" qəzeti, "A HABER" televiziya kanalı və digər KİV tərəfindən işıqlandırılıb.

# Gənc Liderlər Proqramının iştirakçıları Azərbaycanın Müdafiə naziri ilə görüşüblər

Gənclər və İdman Nazirliyinin və Heydər Əliyev Mərkəzinin 2019-cu ildən həyata keçirdiyi "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçıları bu dəfə Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə görüşüblər.

Bu barədə AZƏRTAC-a Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.




Onlayn tədbirdə Gənclər və İdman nazirinin müavini İntiqam Babayev əvvəlcə layihənin məqsədi, nazirlik tərəfindən vətənpərvərlik sahəsində görülən işlər, artıq 20 ildən artıq müddətdə Müdafiə Nazirliyinin, Gənclər və İdman Nazirliyinin əlaqədar qurumlarla birgə həyata keçirdiyi "Şahinlər" hərbi-vətənpərvərlik oyunu, ümumilikdə gerçəkləşdirilən layihə və tədbirlər haqqında məlumat verib. Nazir müavini bu tədbirlərdə 10 mindən artıq gəncin iştirak etdiyini bildirib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov vətənpərvərliyin sadəcə əsgərlərin çiyninə düşmədiyini, tutduğu vəzifədən asılı olmayaraq hər bir vətəndaşa aid olduğunu diqqətə çatdırıb.

Zakir Həsənov bildirib ki, düşmənin əsas məqsədlərindən biri gənclərdə ölkəmizlə bağlı müxtəlif xoşagəlməz fikirlər formalaşdırmaqdır. Bu gün sosial şəbəkələrdə azərbaycanlı adı ilə qeydiyyatdan keçən çoxsaylı ermənilər var. Onların əsas məqsədi gənclərimizdə vətəninə, ölkəsinə, dövlətinə qarşı mənfi rəy formalaşdırmaqdır. Mütləq şəkildə iki hədəfimiz olmalıdır. İlk növbədə, gənclər hər bir işdə həmrəy olmalıdırlar. Digər məqam bir-birimizə dəstək olmağımızdır. Biz daim vətən uğrunda çiyin-çiyinə döyüşməyə, onun müdafiəsinə hazır olmalıyıq.

Sonra nazir Zakir Həsənov gənclərin Tovuz döyüşləri, Azərbaycanın ordu quruculuğu, Azərbaycan-Türkiyə birgə hərbi təlimləri və digər mövzular barədə suallarını cavablandırıb.

"Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının əsas məqsədi gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi ilə onlarda liderlik keyfiyyətlərinin inkişafına şərait yaratmaqdır. Cari ilin aprelindən start götürən proqramda iştirak üçün 350-dən artıq gənc müraciət edib. İlkin seçimlərdən sonra 171 gənclə onlayn formada müsahibə aparılıb. Nəticədə 30-a yaxın rayondan 115 gənc iştirakçı kimi seçilib. Proqramı uğurla başa vurmuş gənclərə diplom və gənc liderin döş nişanı təqdim ediləcək.

İştirakçıların seçimi zamanı onların ictimai fəallığı, təşkilatçılıq bacarıqları, dünyagörüşləri, hadisələrə baxışları, ünsiyyət və əlaqə qurmaq bacarıqları, komandada işləmək təcrübəsi kimi meyarlara üstünlük verilir.

Avqust-oktyabr aylarında proqram çərçivəsində onlayn formada rəsmi şəxslərlə görüş, vebinar və təlimlərin keçirilməsi nəzərdə tutulub.

Proqram Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının Tədbirlər Planının 5.1.1-ci yarımbəndinə (Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ olunması) əsasən həyata keçirilir.

# İLHAM ƏLİYEV Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edir

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, bu, Rusiyanın Ermənistanı silahlandırması ilə bağlı ilk fakt deyil. Hələ 1990-cı illərin ortalarından başlayaraq bununla bağlı faktlar məlum idi. Qətlə yetirilən Rusiya Dövlət Dumasının deputatı, general-leytenant Lev Roxlin bununla bağlı 1997-ci il aprelin 2-də dumanın qapalı iclasında ifşa xarakterli çıxış da etmişdi.

## Minsk qrupu öz funksiyalarını yerinə yetirə bilmir

Son dövrlərdə Azərbaycan-Rusiya əlaqələri yüksələn xətt üzrə sürətlə inkişaf edib. Dövlət başçılarının qarşılıqlı səfərləri iki ölkə arasında əməkdaşlığın genişlənməsinə güclü təkan verib. Son illərdə iki dövlətin prezidentləri dəfələrlə görüşüblər. Bütün bu görüşlərin hər birində müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi, layihələrin və təşəbbüslərin həyata keçirilməsi müzakirə edilib, bir sıra mühüm sənədlər imzalanıb. Bu mənada prezidentlərin siyasi iradəsi və birgə səyləri iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaradıb. İldən-ilə yüksələn xətt üzrə inkişaf edən dövlətlərarası münasibətlər hazırda strateji səviyyəyə yüksəlib. Bu gün iki ölkə arasında münasibətlər beynəlxalq əməkdaşlıqdan tutmuş iqtisadi və hərbi sahələrə qədər geniş spektri əhatə edir.

Eyni zamanda müstəqil siyasət yürüdən Azərbaycan Qərbin siyasi və iqtisadi sanksiyaları ilə üzləşən Rusiyaya daim dəstək verib. Ölkəmiz anti-Rusiya xarakterli təşəbbüslərə heç vaxt qoşulmayıb. Odur ki, bu baxımdan son vaxtlarda Ermənistana intensiv şəkildə silahların daşınması Azərbaycan-Rusiya münasibətlərinin ruhuna tamamilə ziddir. Qərbin ciddi sanksiyaları şəraitində Rusiya ilə tərəfdaşlığa sadiq qalan ölkəmizin bu cür münasibət görməsi haqlı olaraq Azərbaycanda narazılıq yaradır. Bu, faktiki olaraq işğalçı ölkəyə açıq-aşkar dəstək vermək deməkdir.

Digər tərəfdən, Rusiyanın ardıcıl şəkildə Ermənistanı silahlandırması onun ATƏT-in Minsk qrupunun həmsədri statusuna, üzərinə düşən öhdəliklərə və 2009-cu il iyulun 10-da "Böyük səkkizlik"in İtaliyanın Akvil şəhərində keçirilən toplantısı çərçivəsində imzalanan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı birgə bəyanatda və 2010-cu il iyunun 26-da ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin prezidentlərinin Kanadanın Muskok şəhərində qəbul etdikləri birgə bəyanatda əksini tapmış mövcud status-kvonun qəbuledilməzliyi prinsipinə ziddir.

Ermənistanın silahlandırılması münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həllinə imkan vermir və mövcud status-kvonun saxlanmasına xidmət edir. Bu hadisə həm də onu göstərir ki, ATƏT-in Minsk qrupu üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilmir. Həmsədr ölkələrdən birinin birtərəfli mövqe tutaraq işğalçıya dəstək verməsi, digərlərinin buna göz yumması Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bütün hüquqi normaların tapdalanmasından başqa bir şey deyil. Buna görə də ATƏT-in Minsk qrupunun fəaliyyəti ilə bağlı Azərbaycanın tənqidləri tamamilə obyektiv və ədalətlidir. Ona görə də səmərəsiz bir quruma çevrilən Minsk qrupunun fəaliyyətinin yenidən təşkili, o cümlədən Türkiyənin həmsədr ölkə qismində prosesə cəlb edilməsi labüddür. Çünki reallıq göstərir ki, indiki vəziyyətdə Minsk qrupu öz funksiyalarını yerinə yetirə bilmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# BTC neft daşımalarını artırır, ekoloji riskləri azaldır

*Əvvəli 1-ci səh.*

Ceyhan terminalında BTC-nin gətirdiyi neftlə ilk tanker 2006-cı ilin yayında yüklənmişdi. Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən 1768 kilometr məsafə boyu nəql olunan təxminən 600 min barel həcmində "Azəri-Çıraq-Günəşli" xam neftindən ibarət həmin ilk yükü dünya bazarlarına "British Hawthorn" tankeri aparmışdı.

İstismara verildiyi həmin vaxtdan bəri BTC vasitəsilə ümumilikdə 462 milyon tondan artıq (3,47 milyard barel) xam neft nəql edilib və Ceyhanda 4526 tankerə vurularaq dünya bazarlarına göndərilib.

Məlumatı BTC-nin operatoru olan BP (bu şirkət layihədə həmçinin 30,1 faiz payla iştirak edir) yayıb. Kəmərin digər səhmdarları AzBTC (25 faiz), MOL (16 aprel 2020-ci il tarixdən "Şevron"u əvəz edib, 8,9 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), İTOÇU (3,4 faiz), İNPEKS (2,5 faiz), "EksonMobil" (2,5 faiz) və ONGC (BTC) Limited (2,36 faiz) şirkətləridir.

BTC-nin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Kəmərin boruları əsasən 42 düymdür. Coğrafi vəziyyətdən asılı olaraq xəttin bəzi hissələri 46 və 34 düymlük borularla çəkilib.

Üç tranzit ölkə boyu BTC-nin 8 nasos stansiyası (2-si Azərbaycanda, 2-si Gürcüstanda, 4-ü Türkiyədədir) və 98 siyirtmə məntəqəsi var. Boru xətti Ceyhanda dəniz səviyyəsinə enməzdən əvvəl dağlarda 2830 metrlik ən yüksək nöqtəsinə qalxır. Kəmər öz marşrutu boyu bir neçə dağ silsiləsindən keçir. 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətləri ilə, yüzlərlə su hövzəsi ilə kəsişir.

BTC-ni səssiz kəmər də adlandırırlar. Çünki boruları torpağın altında, ən azı bir metr dərinlikdə basdırılıb. Bu, onun təhlükəsizliyini təmin edən şərtlərdən biridir. BTC-nin digər üstünlüyü Dardanel və Bosfor boğazlarından yan keçərək tankerlərin hərəkətinə mane olmamasıdır. BTC həm də tikintisinə başlandığı vaxtdan indiyədək dolayısı ilə (keçdiyi ərazilərdə həyata keçirilən sosial layihələrlə) və bilavasitə gətirdiyi gəlirlərlə bütün regiona xeyir-bərəkət bəxş edir.

Xatırladaq ki, BTC dünya miqyasında dövrün ən böyük və mürəkkəb mühəndis-texniki qurğularından biri hesab edilir. Təsadüfi deyil ki, kəmərin tikintisinin tamamlanması üçün 4 il vaxt tələb olunub. Layihə 2002-ci ilin iyul ayında təsdiqlənib və 2006-cı ilin may ayında sona çatdırılıb. Tikintinin ən qızğın dövründə işə 22 min nəfər cəlb edilib ki, bunların da 80 faizə qədəri inşaat meydançalarına yaxın ərazilərin sakinləri olub.

BTC neft daşımalarının artımına, ekoloji risklərin azalmasına kömək etməklə yanaşı, Azərbaycan, Gürcüstan, Türkiyə və Qərb ölkələri arasında siyasi və iqtisadi əlaqələri gücləndirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Yanvar-iyun ayları ərzində Azərbaycanda 59 min 356 körpə doğulub

Yanvar-iyun ayları ərzində Azərbaycanda 59 min 356 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə bu göstərici 12 körpə təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, körpələrin 1608-i əkiz, 57-si isə üçəmdir.

Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 46,7 faiz təşkil edərək hazırda hər 100 doğulan qıza 114 oğlan düşür (bioloji norma 105-107 təşkil edir). Doğulanların cins nisbətinin pozulması ümumi əhalinin cins strukturunu da dəyişir. Hazırda hər 1000 kişiyə 1002 qadın düşür.

Bu ilin birinci yarısında ölkədə 31 min 16 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,3 təşkil edib.

# "Tank biatlonu" müsabiqəsində iştirak edən hərbçilərimiz döyüş maşınlarının texniki vəziyyətini yoxlayıblar

"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız onların istifadəsinə verilən döyüş maşınlarını qəbul edib, texniki qulluq göstərib və baxış keçiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tank heyətləri və texniki dəstək qrupu döyüş maşınlarının mühərrikləri, idarəetmə sistemləri və rabitə vasitələrinin texniki vəziyyətini yoxlayıblar.

Azərbaycan tankçıları avqustun 23-də Çin, Belarus və Serbiyadan olan tank heyətləri ilə yarışacaqlar. Müsabiqə sentyabrın 5-dək davam edəcək.



# Atəşkəs rejimi 30 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistanın növbəti həyasızlığı

*Əvvəli 1-ci səh.*

Beynəlxalq hüquqi normalardan yanaşsaq görərik ki, öz müqəddəratını təyinetmə prinsipi Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə aid edilə bilməz. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Bütövlükdə Ermənistana və Dağlıq Qarabağ məsələsinə gəldikdə, öz müqəddəratını müəyyənetmə prinsipi işləmir, çünki erməni xalqı öz müqəddəratını bir dəfə müəyyən edib, onların erməni dövləti var, baxmayaraq ki, Azərbaycan torpağında yaradılıb. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına biz heç cür imkan verə bilmərik". Buna görə də Ermənistanın beynəlxalq ictimaiyyəti aldatmağa və Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasında Azərbaycanı günahlandırmağa çalışması mənasızdır. Çünki Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin mahiyyətinin beynəlxalq səviyyədə ifşa olunması istiqamətində Prezident İlham Əliyev məqsədyönlü siyasət aparır, dünya birliyi Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələri ilə bağlı əsl həqiqətlərlə tanışdır. Buna bariz nümunə kimi, 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısında, həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş iclasında, 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın qətiyyətli mövqeyini ifadə edən çıxışlarını göstərmək olar. Azərbaycan Prezidenti münaqişənin yaranması səbəbləri və onun aradan qaldırılması ilə bağlı aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqe tutduğunu, işğalçılıq siyasətini davam etdirdiyini tutarlı faktlarla göstərmiş, N.Paşinyanın iddialarının əsassızlığını sübut edərək onu miskin siyasi vəziyyətə salmışdır.

Sənəddə guya Azərbaycanda ermənifobiyanın olduğu bildirilir, ermənilərə qarşı uydurma qırğınların həyata keçirilməsindən danışılır. Amma əsl reallıq isə bundan ibarətdir ki, Ermənistan tarixən azərbaycanlıları etnik təmizləməyə və deportasiyaya məruz qoymuşdur. Hazırda Azərbaycanın 20 faiz ərazisini Ermənistan işğal altında saxlayır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhəri ermənilər tərəfindən yerlə-yeksan edilmiş, günahsız dinc əhaliyə, o cümlədən uşaqlara, qocalara, qadınlara divan tutularaq soyqırımı həyata keçirilmişdir. Erməni millətçilərinin insanlıqla bir araya sığmayan mürtəce faşist mahiyyəti Xocalı soyqırımında bütün çılpaqlığı ilə ortaya çıxır. Bütün bunlar Ermənistanda azərbaycanfobiyanın hökm sürdüyünü və xalqımıza qarşı nifrət hissinin aşılandığını göstərir.

Strategiyadan məlum olur ki, Ermənistan regionda sülhün və sabitliyin təmin olunmasında maraqlı deyil, qeyri-konstruktiv mövqe tutub qonşu dövlətlərlə münasibətləri daim gərginləşdirməyə çalışır. Sənəddə qondarma "erməni soyqırımı"na istinad olunmaqla Türkiyəyə qarşı ittihamlar da irəli sürülür ki, bunun əsas səbəblərindən biri Türkiyənin beynəlxalq hüquqdan çıxış edərək, Ermənistanı Azərbaycanın işğal edilmiş ərazilərini tərk etməyə çağırması, beynəlxalq təşkilatlar və xarici dövlətlərlə ikitərəfli münasibətlər çərçivəsində ölkəmizin ədalətli mövqeyini müdafiə etməsi ilə bağlıdır.

Sənəddə Ermənistanın millətlərarası və sivilizasiyalararası dialoqu dəstəkləməsi kimi iddiaların özünə yer tapması reallıqdan çox uzaqdır. Azərbaycanlılara qarşı etnik təmizləmə aparmış, xalqımızın mədəni-tarixi, dini abidələrini dağıtmış, mənimsəmiş Ermənistanda tolerant mühitin olduğunu bildirmək heç bir məntiqə sığmır. Yeni strategiyada əvvəlkindən fərqli olaraq erməni kilsəsinin funksiyaları genişləndirilir və onun üzərinə yeni missiyalar qoyulur. Daha bir maraqlı məqam isə ondan ibarətdir ki, əvvəlki "strategiya"da erməniçiliyin yayılmasının xüsusi lokomotivi kimi yalnız erməni apostol kilsəsinin adı göstərilirdisə, yeni sənəddə bu siyahıya erməni katolik kilsəsi və erməni lüteran kilsəsi də əlavə edilmişdir. Strategiyada qeyd olunur ki, Ermənistan cəmiyyətində zorakılıq və ksenofobiyaya yer yoxdur. Halbuki Qafqaz regionunda yeganə mono-etnik ölkə olan və millətçi siyasət aparan Ermənistan multikultural dəyərlərdən nəinki uzaqdır, hətta dünya mədəniyyəti irsinə ciddi təhlükədir. Qaniçən, şovinist Qaregin Njdenin timsalında faşizmi təbliğ edən Ermənistandan başqa nə gözləmək olar ki?!



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarixi mədəniyyət abidələrinin siyahısı"na əsasən, dövlət qeydiyyatına görə, Azərbaycanın işğal olunmuş ərazilərində xalqımızın tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur. Əslində, bu siyahıya düşməyən, xalqımızın Qarabağdakı varlığını, milli kimliyimizi özündə daşıyan minlərlə tarixi abidə olmuşdur. Bəzi məlumatlara görə, dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən artıqdır, beynəlxalq əhəmiyyətli abidələrin sayı onlarcadır, qəbiristanlıqların sayı isə 900-dən çoxdur. İşğal altındakı torpaqlarımızda tarixi-dini abidələrin təqribi sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır.

Qeyd edək ki, xalqımızın dini-tarixi abidələrinə qarşı Ermənistanın təcavüzü müxtəlif istiqamətlər üzrə həyata keçirilir. Milli mənsubiyyəti və qədim tarixi, dini ənənələri özündə əks etdirən abidələr tamamilə uçurulur. Ermənilər İrəvandakı "Göy məscid"in və Şuşadakı "Yuxarı Gövhər ağa" məscidinin arxitektur xüsusiyyətlərini dəyişdirərək onları İran abidələri kimi qələmə verirlər. Burada əsas məqsəd azərbaycanlıların minilliklər ərzində yaşadıqları torpaqlarla bağlı tarixi keçmişini, mənəvi yaddaşını məhv etməkdir. Ermənilər İrəvanda "Şah Abbas" məscidi, "Buğakar", "Ağadədə" ziyarətgahları kimi çoxsaylı müqəddəs yerləri uçurmuş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonda "Aşağı Gövhər Ağa" məscidi, Ağdam Cümə məscidi, "Ağoğlan" məbədi, "Xudavəng" məbədi, "Tatev" məbədi, "Gəncəsər" məbədi və s. dağıtmış, yaxud erməniləşdirib-qriqoryanlaşdırmışdır.

Azərbaycanın işğal edilmiş ərazilərindəki ilk insan məskənlərindən olan Azıx və Tağlar mağaralarından, Qaraköpək və Üzərliktəpə kurqanlarından Ermənistan hərbi məqsədlər üçün istifadə edərək onları qəsdən dağıdır. Ermənilər Azıx mağarasında beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq arxeoloji qazıntılar həyata keçirir, qarət etdikləri tapıntıları İrəvana daşıyırlar. İşğal altında qalan torpaqlarımızdakı insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə Ermənistan və separatçı Dağlıq Qaradağ rejimi məsuliyyət daşıyır. Ermənistanın xalqımıza məxsus abidələri dağıtması və yerli toponimləri məqsədli şəkildə dəyişdirməsi "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESKO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Təəssüf ki, beynəlxalq güc mərkəzlərinin apardığı "ikili standartlar" siyasəti Dağlıq Qarabağ münaqişəsinin həllini ləngidən əsas səbəblərdən biridir və bu hal Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə, hərbi təxribatlar törətməsinə rəvac verir. 2020-ci il iyulun 12-də Tovuz rayonu istiqamətində Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozaraq təxribata əl atdığını buna misal göstərmək olar. Azərbaycan Ordusu həmin vaxt Ermənistanın mənfur niyyətinin qarşısını aldı, sarsıdıcı atəş zərbələri endirərək düşmənin xeyli sayda hərbi canlı qüvvəsini, döyüş və nəqliyyat texnikasını, mühüm obyektlərini məhv etdi. Döyüşlərdə düşmənlə böyük fədakarlıqla vuruşan hərbçilərimizdən qəhrəmancasına şəhid olanlar da oldu, lakin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə Milli Ordumuz onların intiqamını aldı. Azərbaycan Ordusu döyüş əməliyyatları zamanı düşmənin üzərində şanlı qələbə qazanaraq, öz peşəkarlığını və üstünlüyünü, dövlətimizin hərbi gücünü bütün dünyaya nümayiş etdirdi. Ermənistan bir daha gördü ki, onun Azərbaycanla açıq döyüşdə qələbə qazanması qeyri-mümkündür. İyulun 12-də Ermənistanın Azərbaycanla sərhəddə təxribatlar törətməyə başlaması Türkiyə, Pakistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Ukrayna kimi dövlətlər, bəzi ölkələrin qanunvericilik orqanları, rəsmi nümayəndələri tərəfindən pislənildi, eləcə də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, GUAM və s. qurumlar Azərbaycana beynəlxalq dəstək verdilər və Ermənistanın təxribatı bu ölkə üçün bumeranq effekti yaratdı.

Ermənistanın işğal etdiyi ərazilərin müvəqqəti olaraq Azərbaycan Respublikasının hakimiyyət orqanlarının nəzarətindən kənarda qalması yalnız milli deyil, həm də regional təhlükəsizliyə mənfi təsir göstərir. Ermənistanın ölkəmizin torpaqlarının bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində zəbt etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən Azərbaycan beynəlxalq hüquq norma və prinsiplərə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu özündə saxlayır. Bu məqsədlə Azərbaycan Ordusu gücləndirilir, onun maddi-texniki bazası möhkəmləndirilir, dost və qardaş ölkələrlə hərbi-siyasi münasibətlər inkişaf etdirilir. Bunun nəticəsidir ki, nüfuzlu "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatının 2020-ci il üzrə "Ən güclü ordu" reytinqinə görə, Azərbaycan Ordusu dünyanın 138 dövlətinin orduları sırasında 64-cü yeri tutur. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sıradadır. Azərbaycan Ordusu yalnız Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqeyə malikdir. Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq 2020-ci il iyulun 29-dan avqustun 10-dək ölkəmizdə hər iki dövlətin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsinin artırılması istiqamətində atılan mühüm addımlardan biridir.

Hazırda Ermənistanda və dünyanın müxtəlif ölkələrində yaşayan erməni siyasətçilərinin özləri belə KİV-də və sosial şəbəkələrdə açıq şəkildə etiraf edirlər ki, Ermənistan müstəqil və suveren dövlət deyil, vassal koloniyadır. Onların sözlərinə görə, iqtisadiyyatı başqa dövlətə məxsus, sərhədlərini başqa dövlətin qoruduğu Ermənistanı müstəqil dövlət adlandırmaq mümkün deyil. Buna görə də hərbi forpost olan Ermənistanı idarə edənlərin "müstəqil" Ermənistanın milli təhlükəsizliyi ilə bağlı hansısa strategiyasından danışmaları mənasızdır. Bu günlərdə N.Paşinyanın BBC-nin "HARD Talk" proqramına verdiyi müsahibə indiki Ermənistan rəhbərliyinin bədnam və bərbad siyasətinin məğzini bir daha aydın şəkildə göstərdi. Miflər və nağıllar üzərində özünə tarix yaradan, xəstəlik səviyyəsində millətçiliyə yoluxmuş və yoluxdurulmuş bu xalqın aqibəti məhz bu cür "liderlər" sayəsində acınacaqlı olacaqdır. Tarix dəfələrlə sübut etmişdir ki, şovinist, faşist, qatı millətçi azarı xalqlar üçün faciələrə gətirib çıxarır. N.Paşinyan öz xələflərinin səhvlərindən, ermənilərin tarixdəki yanlışlarından ibrət götürməmişdir və bu onun təqdim etdiyi "sənəd"də və çıxışlarında aydın formada görünür.

N.Paşinyan hakimiyyəti Ermənistanda əhalinin diqqətini üzləşdiyi böhrandan, qarşıdurmalardan və anarxiyadan yayındırmaq üçün milli təhlükəsizlik strategiyası adı altında ictimai rəyi öz xeyrinə dəyişməyə çalışır ki, bu da mümkün deyil. Hazırda Ermənistan işğalçı və şovinist siyasət aparmaqla beynəlxalq və regional təhlükəsizlik, bölgədə sülhün və sabitliyin təmin olunması üçün ciddi təhdid yaradır. Ermənistan tarixi saxtalaşdırmaq şousundan, ölkəmizə qarşı əsassız ərazi iddialarından əl çəkməli, beynəlxalq hüquqi tələbləri yerinə yetirərək işğal etdiyi Azərbaycan ərazilərini tərk etməlidir. Prezident İlham Əliyevin dediyi kimi, "Beynəlxalq hüququn normaları tam tətbiq edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra olunmalıdır, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir. Bu, prinsipial mövqedir. Bu mövqe tarixə və beynəlxalq hüquqa əsaslanır. Çünki Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Çünki bütün dünya, bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ona hörmətlə yanaşır. Dağlıq Qarabağ isə Azərbaycanın ayrılmaz hissəsidir".

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini***

## 19 Avqust Ümumdünya Humanitar Yardım Günüdür

# Azərbaycan dünya ölkələri ilə geniş humanitar əlaqələrə malikdir

2003-cü il avqustun 19-da BMT-nin Bağdaddakı qərargahında baş verən partlayış nəticəsində 22 nəfər həlak olmuşdu. Həlak olanlar arasında görkəmli xadim Serjiu Vieyra di Mellu da var idi. Bu səbəbdən 2008-ci il dekabrın 11-də BMT Baş Məclisi avqustun 19-nu Ümumdünya Humanitar Yardım Günü elan edib.

Ümumdünya Humanitar Yardım Günü öz həyatlarını təhlükə altına qoyaraq başqalarının həyatını xilas etmək və yaxşılaşdırmaq üçün çalışan bütün humanitar yardım işçilərinə həsr olunur. Xatırladaq ki, son illər Bakının evsahibliyi etdiyi dünya səviyyəli tədbirlər sırasında beynəlxalq hümanitar forumlarının da xüsusi rolu var. Odur ki, hər il bu tarixi gün Azərbaycanda qeyd edilir. Həmin gün dünyanın ən böyük dövlətlərinin belə yeri gələndə istər iqtisadi, istər siyasi, istərsə də humanitar yardım baxımından bir-birinin dəstəyinə böyük ehtiyacı olur. Humanitar ehtiyacların səbəbləri müharibələrdən tutmuş torpaq və resurslar uğrunda münaqişələrə, iqlim dəyişikliyi ucbatından torpaq sahələrinin və dəniz sahillərinin eroziyaya uğramasından, zəlzələ, torpaq sürüşməsi, habelə tufan kimi qəfil və gözlənilməz təbii fəlakətlərə qədər müxtəlif ola bilir. Təbii fəlakətlərdən əziyyət çəkən insanların sayı son on illər xeyli artıb. 2020-ci il həm də Azərbaycanla Birləşmiş Millətlər Təşkilatı arasında əlaqələrin 28-ci ildönümüdür ki, bu da ölkədə sülhün və təhlükəsizliyin, inkişafın və insan hüquqlarının təşviqi məqsədini daşıyan tərəfdaşlıq münasibətlərində əlamətdar hadisədir. Bu münasibətlər Ermənistanla həll olunmamış münaqişənin getdiyi dövrdə başlayıb. Bu dövrdə Azərbaycandan və xarici ölkələrdən olan humanitar işçilər münaqişənin mülki qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi üçün əl-ələ verərək çalışıblar.





Ekspertlərin fikrincə, hər il təxminən 211 milyondan çox insan təbii fəlakətlərin mənfi təsirinə məruz qalır. Dünyada əhalinin sayının, iqtisadi böhranın, ekoloji və sağlamlıq problemlərinin, aclıq dərəcəsinin, müharibə və təbii fəlakətlərin çoxalması, qiymətlərin bahalaşması humanitar yardım işçilərinin fəaliyyətinin önəmini daha da artırır. Humanitar yardım qrupları aclıqdan, müharibələrdən, cinsi ayrı-seçkilik və zorakılıqdan, təbii fəlakətlərdən əziyyət çəkənlərə, o cümlədən qaçqın və məcburi köçkünlərə, qocalara, uşaqlara, kimsəsizlərə, təmiz suya ehtiyacı olanlara kömək əlini uzadırlar.

Humanitar yardım problemi ilə Azərbaycan Ermənistanın hərbi təcavüzünə uğradıqdan sonra üzləşmişdir. Qaçqın və məcburi köçkün problemi ortaya çıxandan bəri (1992-ci ildən başlayaraq) BMT-nin Ali Komissarlığı, BMT agentlikləri, ABŞ-ın, Avropanın, Türkiyənin, İranın, ərəb ölkələrinin humanitar təşkilatları Azərbaycanda 800 milyon dollar məbləğində yardım proqramları həyata keçirmişlər. Ən çətin bir dövrdə - ötən əsrin 90-cı illərinin əvvəllərində bu yardımlar olmasaydı, ölkəmizdə ciddi çətinliklər yaranardı. Bu təşkilatlar və donor ölkələr indiyədək məcburi köçkünlər üçün 8 mindən çox sadə evlər tikib, Füzuli və Ağdam rayonlarının işğaldan azad edilmiş hissəsində 700 ev, 600 ictimai bina təmir olunub, 60 orta məktəb binası, 470 məktəb binası və səhiyyə obyekti üçün əlavə otaqlar inşa ediblər. Onlar həmçinin 250 min məcburi köçkün üçün gəlir əldə etmək mənbələri və icmanın inkişaf proqramlarını yaradıblar.

Azərbaycan öz müstəqilliyinə qovuşandan sonra ölkədə xeyli sayda beynəlxalq humanitar təşkilat fəaliyyət göstərməyə başladı. Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində Cənubi Qafqazın lider dövlətinə çevrilən Azərbaycan iqtisadiyyatın bütün sahələrində güclü inkişaf əldə etdi. Bundan sonra humanitar yardımların istiqaməti də dəyişdi. 2000-ci ildən beynəlxalq təşkilatların humanitar yardımları inkişaf proqramları ilə əvəzlənməyə başlayıb.

Dünyanı başına götürən dəhşətli COVID-19 pandemiyasına qarşı mübarizədə humanitar yardımlara ehtiyacın labüdlüyü, vacibliyi və əhəmiyyəti göz önündədir. Qürurla deyə bilərik ki, nəinki COVID-19 pandemiyasının yayılmasının qarşısının alınmasında, ümumiyyətlə, bu sahədə Azərbaycan dünyaya örnək göstərilən dövlətlərdəndir. Azərbaycan hansı səbəbdən olursa-olsun humanitar yardıma ehtiyac duyan ölkələrə dərhal təmənnasız kömək əlini uzadır. Pandemiya dövründə dövlətimiz bugünə kimi 29 ölkəyə yardım edib. Ehtiyacı olan ölkələrə 100 tonlarla humanitar yardım göndərib. Bu yardımlar öz növbəsində çoxlu sayda insanın həyatının xilasına yönəlib.

Bu, xalqımızın humanistliyindən, xeyirxahlığından irəli gəlir. Hələ XX əsrin əvvəllərində Əfqanıstanda taun xəstəliyindən dərman çatışmazlığı ucbatından insanlar kütləvi şəkildə qırılırdılar. Bunu eşidən böyük xeyriyyəçi - Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev 300 min ampula vaksin alaraq Pakistana göndərir. Hələ də yaddaşlarda yaşayan bu humanitar yardım hesabına 100 mindən çox insan bugünkü koronavirusa bənzər qəfil ölümdən qurtara bilmişdir.

Digər tarixi misal: 1921-ci il mart ayının əvvəllərində Türkiyə Cümhuriyyətinin başqanı Mustafa Kamal Paşa Azərbaycana - Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub yazaraq ondan borc pul istəyir. Nərimanov məktubla tanış olan kimi Mustafa Kamal Paşaya dərhal 500 kq qızıl göndərir. Daha sonra Rusiyadan aldığı 10 milyon qızıl pulu da Ankaraya çatdırır. Bu yardımlar döyüş içində olan Türkiyəyə kömək olur. Bu yaxşılaşmanı sürətləndirmək üçün Azərbaycan hökuməti öz istəyi ilə könüllü şəkildə 1921-ci il martın 23-də Türkiyəyə Azərbaycan xalqının hədiyyəsi olaraq 30 sistern neft, 2 sistern benzin, 8 sistern yağ göndərir. Bundan əlavə, 1922-ci ildə Batum yolu ilə 9 min tondan çox kerosin və 350 ton benzin yardımı edir.

Nərimanov Mustafa Kamal Paşaya yazdığı cavab məktubunda qazanılan uğurlara görə türk xalqını təbrik edərək sonda əlavə edir ki, "Paşam, bizdə qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşının əlindən tutar. Biz qardaşıq, hər zaman əlinizdən tutacaq və tutmağa davam edəcəyik".

Dünya şöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətdə olduğu illərdə müharibə və münaqişələrdən, qəza və təbii fəlakətlərdən zərər çəkən ölkələrə, xalqlara, ayrı-ayrı insanlara dəfələrlə dövlət səviyyəsində humanitar yardımlar göstərmişdir. Beynəlxalq humanitar yardımlar sırasında Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlərin və zərərçəkmişlərə etdiyi yardımların coğrafiyası daha genişdir.

Xalqımızın milli mentalitetinə xas bu ənənəni bu gün Azərbaycan Prezidenti İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva uğurla davam etdirir. Bu uğurların bariz nümunəsi kimi cənab İlham Əliyev Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri ilə keçirdiyi videokonfransda demişdir: "Pandemiya zamanı biz qlobal səviyyədə çox fəal çalışdıq. Biz artıq 29 ölkəyə humanitar yardım göstərmişik. Eyni zamanda hazırda biz 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatına sədrlik edirik və həmin təşkilatın onlayn Zirvə görüşünü keçirdik. Həmin tədbir çox uğurlu oldu. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində maliyyə yardımı göstərmişik. Bu, bizim beynəlxalq öhdəliklərimizin bir hissəsi idi".

Dünyada qarşıdurma və müharibələr 68 milyondan çox insanın doğma yurdlarından didərgin düşməsinə, evsiz qalmasına səbəb olub. Uşaqlar və kişilər məcburi olaraq silahlı qruplara cəlb edilir, qadınlar təcavüzə və istismara məruz qalırlar. Humanitar yardım fəalları belə insanlara həyatlarını yenidən qurtarmaq üçün köməklərini əsirgəmirlər. Münaqişə zonalarında, təbii fəlakətlərin baş verdiyi ərazilərdə yardıma ehtiyacı olanlara vaxtında kömək etmək üçün bu fəallar bəzən həyatlarını riskə atırlar. Azərbaycan Respublikası da son 15 ildə bu humanitar yardım siyasətinin önəmli iştirakçılarından birinə çevrilib. Bir çox hallarda həmin yardımlar fəlakətlə üzləşmiş xarici ölkənin müraciəti əsasında təcili şəkildə həyata keçirilir. Digər hallarda isə humanitar yardımlar əvvəlcədən qəbul edilmiş yardım təyinatlı proqramlar çərçivəsində davamlı olaraq humanitar yardıma ehtiyacı olan xarici ölkələrə göndərilir. Bu tarixi gündə qürurla deyə bilərik ki, Azərbaycan dünya ölkələri ilə geniş humanitar yardım əlaqələrinə malikdir. Əlbəttə, hər kəsin istəyi budur ki, insanları bu humanitar yardıma əl açmağa vadar edən müharibələr, münaqişələr tezliklə sona yetsin, heç kimdən asılı olmadan baş verən təbii fəlakətlərdən, seldən, daşqından, zəlzələdən, meşə yanğınlarından, habelə yol-nəqliyyat, təyyarə və qatar qəzalarından zərər çəkən insanların sayı azalsın. Bu humanitar yardımlar bayram sovqatları ilə əvəz olunsun.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Şəkidə Reabilitasiya Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib

Avqustun 18-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Şəki şəhərindəki Reabilitasiya Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib.

Müəssisənin açılışında Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Cavid Əbdül-Qədirov, Şəki Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və əlilliyi olan şəxslər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, mərasimdə nazir müavini Vüsal Nəsirli çıxış edərək, ölkəmizdə əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımları diqqətə çatdırıb, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, əlilliyi olan şəxslər üçün reabilitasiya infrastrukturunun müasirləşdirilməsi və genişləndirilməsi sahəsində də ardıcıl işlərin aparıldığını bildirib. Qeyd olunub ki, 2019-cu ildə nazirliyin Yevlax və Naftalan Reabilitasiya mərkəzləri, Mərdəkan Reabilitasiya Pansionatı, Protez-Ortopedik İstehsalat Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib.





Bu istiqamətdə tədbirlərin 2020-ci ildə də davam etdirildiyini vurğulayan Vüsal Nəsirli avqustun 11-də Lənkəran şəhərində Reabilitasiya Mərkəzinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verildiyini diqqətə çatdırıb. Bildirilib ki, cari ildə həmçinin Sumqayıt, Şirvan, Xaçmaz şəhərlərində reabilitasiya mərkəzləri, Şağan Reabilitasiya Pansionatı əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə veriləcək. Bundan əlavə, uşaq reabilitasiya sisteminin ölkəmizin bölgələri üzrə genişləndirilməsi işləri çərçivəsində bu il Qəbələ və Şəmkir rayonlarında uşaq reabilitasiya mərkəzlərinin açılması da nəzərdə tutulub. "Beləliklə, 2020-ci ildə ümumilikdə nazirliyin 8 reabilitasiya müəssisəsinin açılması planlaşdırılıb. Bu da reabilitasiya xidmətləri ilə əhatə olunanların illik sayının iki dəfə artaraq 28 minə çatmasına imkan verəcək", - deyə nazir müavini qeyd edib.

Tədbirdə əlilliyi olan şəxslər ölkəmizdə həssas əhali qruplarına göstərilən dövlət qayğısından, eyni zamanda reabilitasiya infrastrukturunun müasir tələblərə uyğun qurulması və bərpa imkanlarının artırılmasından razı qaldıqlarını ifadə edərək, dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Müasir standartlara uyğun reabilitasiya şəraitinin yaradıldığı müəssisə limfodrenaj, ozonoterapiya, maqnitoterapiya, hidroterapiya və digər yeni, müasir tibbi-reabilitasiya avadanlıq və aparatlarla təchiz edilib. Mərkəzdə Şəki və ətraf rayonlar üzrə il ərzində 800 əlilliyi olan şəxsə səmərəli fizioterapevtik üsulların tətbiqi əsasında tibbi-sosial reabilitasiya xidmətləri göstəriləcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 13 faiz artıb

Ölkə üzrə 7 ayda 21,6 milyard manatlıq (2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz az) sənaye məhsulları istehsal edilmişdir. Azalma neft-qaz sektorunda məhsul istehsalının 4,3 faiz aşağı düşməsi hesabına baş vermişdir. Sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 13 faiz artmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye məhsullarının 61 faizi mədənçıxarma, 32,7 faizi emal, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 6,5 faiz azalmış, əmtəəlik qaz hasilatı 13,3 faiz artmışdır.

Emal sektorunda isə əczaçılıq məhsullarının istehsalı 7,8, metallurgiya sənayesi məhsullarının istehsalı 2,1 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 92,5 faiz, maşın və avadanlıqların istehsalı 64,9, kompüter, elektron və optik məhsulların istehsalı 42,8, digər nəqliyyat vasitələrinin istehsalı 57,7, ağacın emalı və ağacdan məmulatların istehsalı 41, tütün məmulatlarının istehsalı 27,6, kağız və karton istehsalı 24,9, rezin və plastik kütlə məmulatlarının istehsalı 19, kimya sənayesi məhsullarının istehsalı 18,8, geyim istehsalı 15,8, elektrik avadanlıqlarının istehsalı 5,1, toxuculuq sənayesi məhsullarının istehsalı 0,4 faiz artmış, hazır metal məmulatlarının istehsalı 0,5, neft məhsullarının istehsalı 0,9, qida məhsullarının istehsalı 1,5, tikinti materiallarının istehsalı 4,8, poliqrafiya məhsullarının istehsalı 5,9, içkilərin istehsalı 7, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 13,2, mebel istehsalı 13,8, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 43,1 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 11,8 faiz artmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 0,5 faiz azalmışdır.

## İqtisadi sektorda çalışanların sayında 5 faiz artım var

Bu il iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 81,4 min nəfər və ya 5 faiz artaraq 1 milyon 695,1 min nəfər olmuşdur. Onlardan 922,1 min nəfəri iqtisadiyyatın dövlət, 773 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,5 faizi təhsil, 18 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13 faizi sənaye, 8,2 faizi tikinti, 8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,6 faizi iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2020-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 23 faiz artaraq 720 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Muğanda su probleminin həlli diqqət mərkəzindədir



Təbiət Muğana bulaqlar bəxş etməmişdir. Muğan bölgəsində içməli su həmişə problem olmuşdur. Kür və Araz çayları sahillərində yaşayan əhali min illər boyu suyu primitiv qaydada vedrə və digər qablarda müəyyən qədər duruldaraq ondan istifadə etmişdir.

Mənbəyini Türkiyədəki dağlardan götürüb Xəzərə doğru istiqamət alan Kür çayı xüsusən Gürcüstanın paytaxtı Tbilisi şəhərindən keçərkən məişət tullantıları ilə çirkləndirilmiş bir vəziyyətə düşür. Respublikamızın ərazisinə daxil olduqdan sonra da ona qoşulan bəzi kiçik çayların suyu ekoloji tələblərə cavab vermir. Alimlər, xarici və yerli mütəxəssislər hələ Sovetlər Birliyi zamanında monitorinqlər apararaq bu suyun məişətdə istifadəyə tam şəkildə yararlı olmadığını, ondakı bakterioloji çirklənmənin normanı dəfələrlə üstələdiyini müəyyən etmişlər. Kürün tərkibində insan sağlamlığına ziyanlı maddələrin, habelə ağır metal tullantılarının olduğu məlum olmuşdur. Bədnam, üzdəniraq qonşularımız ermənilər də əllərindəki ərazilərdən Kürə və Araza axan su mənbələrini qəsdən çirkləndirmək yolundan əl çəkmirlər. Respublikamızın su ehtiyatları, göründüyü kimi, çox məhduddur. “Nə etmək olar?” sualı həmişə mütəxəssisləri düşündürmüşdür. Həm də baş verən quraqlıqla əlaqədar olaraq bu gün respublikamızın hər yerində olduğu kimi, Muğan bölgəsinin rayonları da içməli və suvarma suyu çatışmazlığından əziyyət çəkir.

Lakin bir məsələni xüsusi qeyd etmək lazımdır ki, respublikamız müstəqillik əldə etdikdən sonra əhalinin içməli su ilə təmin edilməsi ön plana çəkilmiş, bu sahədə əhəmiyyətli işlər görülmüşdür. Biləsuvar, Salyan rayonlarının içməli su probleminin həll edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. İndi həmin rayonların əhalisi Hacıqabul rayonunun Talış kəndindəki su qurğusu vasitəsilə fasiləsiz olaraq ekoloji cəhətdən təmiz, yəni içməli su ilə təmin edilir. Həmin sutəmizləyici müəssisədən Kür çayının Şirvan tayı sahilindəki Şirvan və Hacıqabul şəhərlərinə və digər yerlərə də su xətti çəkilmişdir.

Neftçala rayonunda isə bu yay su böhranı yaşanmaqdadır. Kürdə suyun səviyyəsinin görünməmiş şəkildə aşağı düşməsi nəticəsində Xəzər dənizinin suyu çaya girərək Salyan rayonunun sərhədinədək gəlib çatmışdır. Yaranmış problemlə əlaqədar olaraq Bakıdan və digər yerlərdən Neftçalaya su maşınları cəlb edilmişdir. Onlar rayon əhalisini su ilə təmin etmək üçün intensiv şəkildə Salyan ərazisindən su daşımaqdadırlar. Nə etmək olar, bu da təbiətin koronavirus pandemiyası ilə bərabər neftçalalıları imtahana çəkən daha bir sınağı, hadisəsidir. Bütün bu məsələlər Prezidentin gündəlik diqqət mərkəzindədir. Su qıtlığı ilə bağlı onlayn keçirdiyi müşavirə, bölgələrimizdə artezian quyularının qazılması, habelə Neftçala rayonunda su probleminin həlli ilə əlaqədar imzaladığı sərəncamlar, tövsiyə və tapşırıqlar bunu əyani şəkildə göstərir.

Yazının əvvəlində dediyimiz kimi, müstəqilliyimiz dövründə istər içməli, istərsə də suvarma suyunun təchizatı yaxşılaşdırılmışdır. Bununla əlaqədar görülmüş işlər sırasında ölkəmizin müxtəlif yerlərində, o cümlədən Muğan rayonlarında quraşdırılan su qurğularını - süni bulaqları qeyd etmək yerinə düşər. “Azərsu” ASC-nin balansında olan bu bulaqlar əhalinin duruldulmuş və təmizlənmiş su ilə təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Belə qurğuların sayı respublika üzrə 460, onlardan qidalanan bulaqlar isə 7 min 500-dür. 481 kənddə quraşdırılan həmin bulaqlardan 764 min nəfər əhali bəhrələnir. Eyni zamanda apardığımız araşdırmalarla məlum oldu ki, Salyan rayonunda 43 qurğu, 710 bulaq 43 kəndin, Neftçala rayonu üzrə 42 qurğu, 750 bulaq 45 kəndin, Biləsuvarda 16 qurğu, 294 bulaq 16 kəndin sakinlərinə xidmət göstərir. Cənubi Koreya, Türkiyə, İsrail və Azərbaycan istehsalı olan bu qurğuların işləmə prinsipi, demək olar ki, eynidir. Həmin qurğulara daxil olan sudakı asılı maddələr 1-ci mərhələdə alüminium-sulfatla çökdürülür, sonra mineral balonlardan, yəni xüsusi ölçülü qum və aktiv karbon balonlarından keçirilərək, xlorlaşdırılıb təmiz su anbarına depolanır. Su bulaqlarından bəzi yerlərdə bütün gün ərzində, bəzi yerlərdə isə tərtib edilmiş qrafik əsasında əhaliyə xidmət göstərilir. Hər kəs də bunu bilərək qablarını götürüb bulaq başına gəlir, bu nəcib, xeyirxah işin səbəbkarları üçün bu sözləri deyirlər: “Su qədər ömrünüz olsun!”

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

## Afinadan “Meyvəli”yə



Fotokameranı götürüb “Meyvəli” bazarına yola düşürük. O saat təəccüblənəcəksiniz ki, sərlövhədəki Afinanın bizim “Meyvəli”yə nə dəxli var? Bir qədər səbirli olun, dəxli olmasaydı adını çəkməzdik.

Nəhəng bazarlar bəzən ciddi hadisələrə səbəb olur və uzunmüddətli gərginliklər yarada bilir. Uxandakı bazardan koronavirusun bütün dünyaya ildırım sürəti ilə yayılmasını xatırlayın. Dünyanı lərzəyə salan, həyatın adi axarının və dünyanın əsrlər boyu formalaşan yaşam tərzinin alt-üst olmasına bu bazar səbəb oldu. Bu yaxınlarda isə Tovuz rayonunda erməni işğalçılarının atdığı mərmilər Moskvanın ən nəhəng ərzaq məhsulları bazarında - Fud Sitidə partladı. Sərhəd savaşına cavab olaraq Moskvada işğalçı ölkənin vətəndaşları bazara buraxılmadı. Ermənilər isə bunu fırladıb “ərik müharibəsi” kimi təqdim etdilər, bir daha özlərini “sülhsevər”, “əzabkeş xalq” kimi qələmə verdilər. Demək istədiyimiz odur ki, nəhəng bazarlar dəniz kimi coşub təlatümə gələ bilirlər. Ta qədimdən bazarlar insanların, ideyaların və mövqelərin qaynayıb qarışdığı və toqquşduğu məkan kimi həmişə diqqət mərkəzində olub.

İndi Afinadan “Meyvəli”yə gedən məcazi yola qayıdaq. Sən demə, miladdan əvvəl V əsrdə yaşayan antik yunan filosofu Sokratın ən sevimli yeri Afinada iki hektar yarımlıq bazar meydanı imiş. O, vaxtının çoxunu burada keçirər, müxtəlif insanlarla tanış olar, fəlsəfi mübahisələr edərmiş. Qədim bazarda dükan, qəlyanaltı, çəkməçidən tutmuş idman zalı, hamam, hətta məhkəməyədək hər şey vardı. Sokrat ona bəzən irad tutsalar da, demək olar ki, bütün ömrünü bu bazarda keçirmiş, hətta burada onu həbs etmiş, sonra da edamına - zəhər içib ölməsinə fitva vermişlər. Bir sözlə, bazar bəşər tarixində ticarətdən savayı mühüm hadisələrin baş verdiyi bir məkan olub.

Hər bir bazarın iqtisadi mahiyyətindən əlavə digər meyarları da mövcuddur. Müasir bazarlar istənilən ölkənin həyatında ərzaq təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır. Bu baxımdan Bakıdakı “Meyvəli” də istisna deyil. Yəni bu məkanın da Azərbaycn paytaxtı üçün xüsusi missiyası, vəzifəsi var.

Bazarı gəzirik, insanlarla danışırıq, alver edirik. Əgər deyib gülməyi, zarafatı bacarırsansa, burada günəşin yandırdığı, əli qabarlı insanlar sənə ağlının itiliyinə görə hörmət edəcəklər, qiymətdə də güzəşt edəcəklər. Sən burada kəndlinin müdrikliyini də, torpağa bağlılığını da, əlinin qabarına qoyduğu qiyməti də görəcəksən. Ünsiyyət qurmağı bacarırsansa, burda hər piştaxtanın arxasında bir neçə Sokrata rast gələcəksən.

“Meyvəli”də gəzişməkdə davam edirik. Bazar əhlindən qiymətləri, nəyi haradan gətirdiyini soruşuruq, imkan düşən kimi də kameranı işə salıb bir-iki şəkil çəkirik. Gülümsəyən də olurdu, niyə çəkdiyimizi başa düməyib çiyinlərini çəkənlər də. Qarğıdalı satan gənc isə biləndə ki, qəzet üçün çəkirik, ürəkdən gülümsədi və qollarını açıb həvəslə aktyorluq etdi ki, qoy kəndimizdə, elə bütün dünyada görsünlər bazara necə oğullar mal gətirir.

“Meyvəli” bazarı həqiqətən də fərqli bir məkandır, Bakının meyvəli ürəyidir. Ürək qanı bütün bədənə necə qovursa, “Meyvəli” də paytaxtın bütün pərakəndə satış nöqtələrini meyvə-tərəvəzlə təmin edir. 3 milyonluq şəhəri başqa yolla kənd təsərrüfatı məhsulları ilə çətin ki, təmin etmək olardı. Bütün ölkənin rayon və kəndlərindən bura mer-meyvə, tərəvəz daşınır, topdansatışa çıxarılır.

Yəqin ki, “Meyvəli”nin Qaradağ rayonunun Lökbatan-Xocasən ərazisində yerləşdiyindən əksəriyyətin xəbəri var. Bu yerin üstünlüyü ondan ibarətdir ki, bazar beynəlxalq avtomobil və dəmir yolu magistralının kəsişdiyi dairədədir. Yəni ölkənin istənilən nöqtəsindən buraya gəlmək asandır. Regionda ən böyük meyvə-tərəvəz bazası kimi “Meyvəli” MMC-nin əsas fəaliyyət istiqaməti topdan və pərakəndə satış işinin təşkili və yerli fermerlərin kənd təsərrüfatı məhsullarını keyfiyyətli və rahat şəkildə satışa çıxarılmasını təmin etməkdir.

MMC-dəki soyuducu anbarlarda kənd təsərrüfatı məhsulları keyfiyyətini itirmədən saxlanılır, fasiləsiz satışa çıxarılır. Bura nəinki regionda və hətta MDB məkanında analoqu olmayan nəhəng ticarət mərkəzidir. 2009-cu ildə istifadəyə verilən bazarın ümumi ərazisi 35 hektardır. “Meyvəli”də 3 korpusdan ibarət 8000 $m^2$ sahəsi olan 16000 ton tutumlu 80 satış anbarı, 2 korpusdan ibarət 7000 $m^2$ sahəsi olan 14000 ton tutumlu 36 soyuducu saxlama anbarları və kənd təsərrüfatı məhsullarının yarmarka və pərakəndə satış bazarı üçün 4000 $m^2$-lik sahə fəaliyyətdədir. Qurulan anbarlar dünyanın ən məşhur şirkətlərindən alınmışdır.

Qeyd etdiyimiz kimi, belə bazarlar dünyanın digər ölkələrində də mövcuddur. Məsələn, Madrid şəhərində meyvə-tərəvəz, ət və ərzaq məhsulları satılan “Mercamadrid” bazarı 176 hektar sahəni əhatə edir. Romanın mərkəzi bazarı isə 140 hektar sahədə yerləşir və burada 1000-ə yaxın şirkət, o cümlədən 110 topdansatış ticarət kampaniyası fəaliyyət göstərir. İllik meyvə-tərəvəz satışının həcmi 750 min tondur. Bazar 17 milyon əhaliyə xidmət göstərir. Pekindəki “Xin Fa Di” topdansatış bazarı isə 5498 hektar sahədə yerləşir, gecə-gündüz işləyir və şəhərin ehtiyaclarının 70 faizini ödəyir.

“Meyvəli” də gecə-gündüz işləyir. Bazarın üstünlüyü ondadır ki, burada topdansatış ticarətlə yanaşı, pərakəndə satış da təşkil olunmuşdur. Bəhruz buradan nə alırsa, şəhərdən təxminən iki dəfə ucuz başa gəlir: “Ayda bir neçə dəfə gəlirəm, alçanı, gilası, şaftalını yeşiklə alıram. Həm ucuz başa gəlir, həm də burada çeşid bolluğu var”.

Qusardan gilas gətirən Babək Quliyev isə bazarın incəliklərindən söz saldı:

- Burada alver etmək, meyvə satmaq o qədər asan deyil. Bir məhsuldan 200-300 adam gətirir. Malını tez satıb evinə dönmək üçün gərək ağlın iti işləsin. Müştərini itirməmək, malı satmaq üçün həm şirindil olmalısan, həm də yeri gələndə qəpiyindən keçməyi bacarmalısan. Diribaş olmasan, ziyana da düşərsən”.

Xaçmazdan şaftalı gətirən Nüsrət danışır ki, bazara təsadüfdən-təsadüfə mal gətirir: “Qardaş, atalar sözü var, al qapında, sat qapında”.

- Bəs niyə bura gəldiniz? - soruşuruq.

- Necə yəni niyə gəldim, bəyəm bilmirsiz? Bu andıra qalmış koronavirus dünyanı dağıtdı. Həmişə qapımda satmışam. Mən hara, bazar hara? Gəlirdilər Rusiyadan mer-meyvəmin pulunu ağacdaykən verirdilər. Qiymət də indikindən iki dəfə baha olurdu.

Nüsrəti başa düşürük. Rusiyada koronavirurs pandemiyasının yaranması milyonlarla insanı işsiz qoyub, minlərlə müəssisə bağlanıb və istehlakçılar alıcılıq qabiliyyətini itiriblər. İlk bəhəri baha alıb şimala daşıyanların çoxu yandı, başqaları da ürək etmədi. Nəticədə gilasın qiyməti düşdü. Sankt-Peterburqdan dostumuz gilası bizim pulla 4 manat 50 qəpiyə aldığını deyir. Bu il Bakıda da pərakəndə satışda da qiymət elə belə idi. Ümumiyyətlə, Bakıda qiymətlərin bir qədər baha olmasının səbəbi həm də karantinlə bağlıdır. Belə ki, əgər əvvəllər kiçik maşınlarla alverçilər kənd-kəsəkdən mal daşıya bilirdisə, indi bu, mümkün deyil. Çünki alverçinin nə ağlı işləyir ki, ticarətini rəsmiləşdirsin, nə də marağı var ki, dövlətə rüsum ödəsin. Kəndlinin özünə gəldikdə, meyvə yığılanda bazara işinin çoxluğundan çıxa bilmir. Məhz bu çətin günlərdə “Meyvəli”nin özündə topdansatış qiymətləri normaldır. Bazarı gəzdikcə biz də bunun şahidi olduq və sevindik ki, ölkədə ərzaq təhlükəsizliyi təmin olunur.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## 7 ayda 40 milyard manatlıq ÜDM istehsal edilib

İlin əvvəlindən ötən 7 ayda ölkədə 40 milyard 008,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,8 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 1,6, neft-qaz sektorunda isə 4,5 faiz azalmışdır.

ÜDM istehsalının 35,3 faizi sənaye, 11,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 7,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,3 faizi tikinti, 2 faizi informasiya və rabitə, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 19 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,2 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 4015,1 manata bərabər olmuşdur.

## Xarici ticarətdə 1,7 milyard dollarlıqdan çox müsbət saldo qeydə alınıb

Bu ilin yanvar-iyun aylarında Azərbaycan dünyanın 167 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 100 ölkəyə məhsul ixrac, 155 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu dövrdə ölkənin xarici ticarət dövriyyəsi 11 milyard 750,2 milyon dollar təşkil etmişdir. Ticarət dövriyyəsinin 6 milyard 760,7 milyon dollarını (57,5 faizini) ölkədən ixrac olunmuş məhsulların, 4989,5 milyon dollarını (42,5 faizini) idxal məhsullarının dəyəri təşkil etmişdir. Nəticədə 1 milyard 771,2 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

2019-cu ilin yanvar-iyun ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 30,3, real ifadədə 20,5, o cümlədən idxal 42,8, ixrac 4,6 faiz azalmışdır.

6 ay ərzində qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 6,9, real ifadədə 14 faiz azalaraq 911,9 milyon dollar olmuşdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 32 faizini İtaliyaya, 19,2 faizini Türkiyəyə, 5 faizini Rusiyaya, 4,2 faizini İsrailə, 3,7 faizini Hindistana, hər biri 3,2 faiz olmaqla Yunanıstan, Çin və Xorvatiyaya, 3,1 faizini Gürcüstana, 3 faizini Ukraynaya, 2,1 faizini Çexiyaya, 1,9 faizini Tunisə, hər biri 1,7 faiz olmaqla Vyetnam, Portuqaliya və İspaniyaya, 11,1 faizini digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

## Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə yükdaşımalar davam edir



Cari ilin yanvar-iyun aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 21 milyon 687,1 min ton, yük dövriyyəsi isə 4 milyard 877,8 milyon ton-km olmuşdur.

Əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 13,7 və 8 faiz azalma müşahidə edilmişdir. Yüklərin 12 milyon 590,7 min tonu və ya 58,1 faizi avtomobil nəqliyyatı, 6 milyon 515,1 min tonu (30 faiz) dəmir yolu nəqliyyatı, 2 milyon 581,3 min tonu (11,9 faizi) dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 20 faizini (4 milyon 332 min tonunu) tranzit yüklər təşkil etmişdir.

## Pandemiya dövründə pulumuzu nəyə xərcləyirik

Cari ilin yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 21,4 milyard manatlıq, o cümlədən 11,5 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 9,9 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda bildirilir ki, 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 2,1, o cümlədən qeyri-ərzaq malları üzrə 7,5 faiz azalmış, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 3,2 faiz artmışdır. Elektron ticarət dövriyyəsi də ötən ilin yanvar-iyul ayları ilə müqayisədə 2 dəfə cox olmuşdur.

Bu barədə 2020-ci ilin yanvar-iyul aylarında alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 48,6 faizi ərzaq məhsullarının, 5,2 faizi içkilər və tütün məmulatlarının, 14,1 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,4 faizi elektrik malları və mebellərin, bir o qədəri avtomobil benzini və dizel yanacağının, 1,8 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Hesabat dövründə istehlak məhsullarının dəyər ifadəsində 23,1 faizi ticarət müəssisələri, 50,5 faizi fərdi sahibkarlar tərəfindən, 26,4 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2019-cu ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 11,8, fərdi sahibkarlar üzrə 0,4 faiz artmış, bazar və yarmarkalarda isə 15,4 faiz azalmışdır.

7 ayda əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 306,4 və ya 2019-cu ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 1,3 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 164,9 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 141,5 manatlıq qeyri-ərzaq malları almışdır.

# Biz birlikdə güclüyük!



## Dinimizin ali dəyərlərini hansısa maraqların, məsuliyyətsizliyin qurbanına çevirmək yolverilməzdir

Səkkiz ay ərzində 22 milyondan artıq insana yoluxan, 777 mindən çox can alan yeni növ koronavirus dünyanın bütün nizamını alt-üst etdi. Qlobal pandemiyanın dövlətlərin iqtisadi, siyasi, sosial və səhiyyə sahələri ilə yanaşı, humanitar və mənəviyyat sahəsinə də dərin təsirləri oldu.



Əksər ölkələrdə izolyasiya tədbirləri çərçivəsində təhsil müəssisələri, mədəniyyət ocaqları, o cümlədən məscid, kilsə, məbəd və s. ibadət yerlərinin fəaliyyəti dayandırıldı. Müsəlmanlar Ramazan ayı mərasimlərini, Qurban bayramını, xristianlar Pasxa, yəhudilər Pesax və digər dinlərin mənsubları bayram və əlamətdar günləri ənənəvi qaydalara uyğun olaraq ibadətxanalarda deyil, ev şəraitində məhdud səviyyədə qeyd etdilər. Səudiyyə Ərəbistanının Məkkə və Mədinə, İranın Qum, İraqın Nəcəf və Kərbəla şəhərlərində yerləşən müqəddəs məkanlara, o cümlədən Vatikanın Müqəddəs Pyotr meydanına zəvvarların ziyarəti qadağan olundu. Bir sözlə, koronavirus bütün sahələrdə olduğu kimi, din aləmində də öz qaydalarını diktə etdi.

Avqust ayının 21-də Azərbaycanda Məhərrəm ayı başlayacaq. İnsanların qapalı və açıq məkanlarda kütləvi şəkildə toplaşmağı virusun yayılmasına təkan verdiyi üçün islam alimləri və din xadimləri dini mərasimlərin, ayinlərin keçirilməsi zamanı səhiyyə qurumlarının göstərişlərinə əməl edilməsini əsas meyar kimi qəbul etməyi vacib sayırlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə deyir ki, ölkəmizdə Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə mart ayından sərt karantin rejimi tətbiq olunmağa başladı. Sərnişindaşımada, ölkə sərhədlərinin bağlanması, təhsil müəssisələri, mədəniyyət ocaqları, o cümlədən mənəviyyat sahəsində izolyasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı bir sıra addımlar atıldı. Operativ Qərargahın 13 mart 2020-ci il tarixli qərarı ilə qeyd olunan sahələrlə yanaşı, dəfn mərasimləri istisna olmaqla yas mərasimlərinin keçirilməsi qadağan edildi, Operativ Qərargahın 17 mart tarixli qərarı ilə isə bütün qapalı məkanların, o cümlədən ibadət evlərinin fəaliyyəti dayandırıldı.

C.Əlifzadə vurğulayır ki, Azərbaycan dindarları, ruhaniləri və dini sahədə fəaliyyət göstərən digər şəxslər bu məsələyə olduqca həssas yanaşaraq yas mərasimləri, ibadət evlərinin fəaliyyəti və dini turizm barədə öz münasibətlərini Operativ Qərargahın sözügedən məsələlərlə bağlı qərarından öncə açıqladılar. Belə ki, fevralın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dini turizmlə məşğul olan şirkətlərin rəhbərlərinin iştirakı ilə görüş keçirildi. Görüşdə məlum oldu ki, turizm şirkətləri İran, İraq və Səudiyyə Ərəbistanında koronavirus infeksiyasının yayılmasını nəzərə alaraq, artıq bu ölkələrdə yerləşən ziyarətgahlara səfərləri dayandırıblar. Onlar vəziyyət dəyişməyənə qədər belə səfərləri həyata keçirmək niyyətlərinin olmadığını bildirdilər: "Eyni həssaslıq martın 5-də Qafqaz Müsəlmanları İdarəsində ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərlərinin iştirakı ilə keçirilən iclasda nümayiş etdirildi. İclasda bu xəstəliyin Allahın imtahanı olduğu bildirilərək Quran ayələrinə istinadən hər kəs məsuliyyətli olmağa dəvət edildi. İclasın sonunda oxunan bəyanatda məscidlərdə moizə və birgə ibadətlərin təxirə salınması, mümkün olduğu qədər ibadətlərin evdə yerinə yetirilməsi, kütləvi mərasimlərin, mövlud və şəhadət günlərinin, ehsan mərasimlərinin keçirilməməsi tövsiyə olundu. Həmin tarixdən etibarən məscidlərin və digər ibadət evlərinin fəaliyyəti məhdudlaşdırılmağa başlanıldı. Bugünədək aparılmış monitorinqlərdə, daxil olan müraciətlərdə, dindarlar və ruhanilərlə görüşlərdə səslәndirilən yekdil fikir ondan ibarətdir ki, yoluxucu xəstəliklərin yayıldığı dövrdə həkimlərin və mütəxəssislərin rəyi elə dinin və ruhanilərin mövqeyidir. Sağlamlığın qorunması insanın ən ümdə vəzifəsidir".

Şöbə müdirinin sözlərinə görə, ümumiyyətlə, koronavirusa qarşı mübarizədə dünya dövlətlərinin həyata keçirdikləri tədbirlərə nəzər yetirəndə görürük ki, onlar daxili siyasi və sosial vəziyyətə, iqtisadi və maliyyə imkanlarına, eyni zamanda, mənəvi dəyərlər sisteminə uyğun olaraq addımlar atırlar. Məsələn, Böyük Britaniya Krallığı, İtaliya kimi ölkələr xəstəliklə mübarizəyə bir az gec başladıqları və ya yanlış istiqamətdə addımlar atdıqları üçün qısa müddətdə xəstəxanalarda yer çatışmazlığı yarandı və xeyli sayda insan ölümü qeydə alındı. Bundan sonra həmin dövlətlər mübarizə metodunu dəyişərək sərt izolyasiya siyasəti yürütdülər ki, onun da nəticəsində xəstəliyin yayılmasını nəzarətə götürə bildilər. ABŞ, Braziliya kimi ölkələrdə xəstəliklə mübarizə siyasi xarakter aldı ki, nəticədə hələ də bu ölkələrdə dramatik vəziyyət davam etməkdədir: "Bizə yaxın olan, ortaq tarixi və mədəniyyəti bölüşdüyümüz İran və Türkiyədə koronavirusla mübarizədə izolyasiya tədbirləri mühüm rol oynayıb. İranda mart, Türkiyədə aprel ayından etibarən sərt izolyasiya tədbirləri həyata keçirildi, insanların kütləvi toplaşdığı yerlərin - məktəblərin, ticarət mərkəzlərinin, məscidlərin fəaliyyəti dayandırıldı ki, bunun da nəticəsində qısa müddətdə xəstəliyin yayılmasını nəzarətə ala bildilər. Lakin may və iyun aylarından etibarən bu ölkələrdə sosial və iqtisadi vəziyyət nəzərə alınaraq sərt karantin rejimi dəyişdirildi və normallaşma siyasəti yürüdülməyə başlanıldı. Ancaq təəssüflər olsun ki, bu normallaşma tədbirləri virusa yoluxma hallarının artmasına səbəb oldu. İran və Türkiyədə may və iyun aylarında gündəlik yoluxma hallarının sayı minin altına düşmüşdüsə, hazırda bu rəqəm İranda 2000, Türkiyədə isə 1200 civarındadır. Azərbaycanla mənəvi bağı olan digər bir ölkə - İraqda da koronavirusla mübarizə çərçivəsində ölkə ərazisində yerləşən müqəddəs məkanlar və məscidlərdə kütləvi tədbirlərin keçirilməsinin məhdudlaşdırılması ilə bağlı müəyyən tədbirlər həyata keçirildi. Bu ölkənin nüfuzlu din xadimləri və alimləri qarşıdan gələn Məhərrəm ayı mərasimləri ilə bağlı dünya müsəlmanlarına müraciət ünvanlayıblar. Həmin müraciətlərdə möminlərə insanların sağlamlığı göz önündə tutularaq Məhərrəmlik mərasimlərini öz evlərində və yaxın adamları ilə təşkil etmələri, sanitar-gigiyenik qaydalara riayət olunması tövsiyə olunub. Din xadimlərinə fəaliyyətlərini internet və onlayn informasiya vasitələri üzərindən həyata keçirmələrinə, dindarlara kütləvi toplantılardan uzaq durmağa çağırışlar ediblər".

Cahandar Əlifzadə qeyd edib ki, Azərbaycanda pandemiyanın ilk günündən etibarən Prezident İlham Əliyev tərəfindən virusla mübarizə istiqaməti müəyyənləşdirildi. Dövlət başçısının dəfələrlə ifadə etdiyi kimi, bu mübarizədə əsas prioritet əhalinin sağlamlığı, insan həyatının qorunmasıdır. Eyni zamanda, ölkənin iqtisadi və sosial vəziyyətinin yaxşılaşdırılması üçün verilmiş qərarlar pandemiya ilə mübarizədə çoxşaxəli addımlar atmağa imkan verir. Hazırda ölkəmizdə koronavirus infeksiyasına yoluxma sayının azalması nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində mərhələli şəkildə tədbirlər həyata keçirilir. Lakin hələ də qapalı məkanlarda yoluxma ehtimalının yüksək olduğundan, metro, iri ticarət mərkəzləri, iaşə obyektləri, eləcə də ibadət evlərinin fəaliyyətinə icazə verilməsi mütəxəssislər tərəfindən məqsədəuyğun sayılmır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi rəsmisinin fikrincə, təəssüf doğuran məqam ondan ibarətdir ki, bəzi qüvvələr Azərbaycanda karantin rejimini, xüsusilə ibadət evlərinin fəaliyyətinə qoyulmuş məhdudiyyətləri yanlış müqayisələr aparmaqla və mahiyyətinə uyğun olmayan şəkildə təqdim etməklə cəmiyyətdə çaşqınlıq yaratmağa çalışırlar. Məscidlərin fəaliyyətinə icazə verilməməsində əsas səbəb olan əhalinin sağlamlığından başqa, digər maraq və məqsədin axtarışına çıxıblar: "Bəzən onların ifadələrindən elə təəssürat yaranır ki, guya Azərbaycanda məscidlərdə ibadət etməyiblər, yaxud da Məhərrəm ayı mərasimləri olmayıb. Artıq bu məsələ ilə bağlı Azərbaycan ruhaniləri və möminləri öz mövqelərini ortaya qoyublar. Azərbaycan cəmiyyəti belə çağırışları sabotaj kimi qiymətləndirir, eyni zamanda, insan həyatına və sağlamlığına laqeyd yanaşmanın dinimizin dəyərlərinə uyğun olmadığına inanır. Ümumiyyətlə, xalqımız dinimizin ali dəyərlərini hansısa maraqların, oyunların, məsuliyyətsizliyin qurbanına çevrilməsini yolverilməz hesab edir. Bir daha vurğulamaq istərdik ki, Azərbaycanda koronavirusla mübarizənin əsas istiqaməti əhalinin sağlamlığına, insan həyatının qorunmasına yönəlib. Unutmamalıyıq ki, koronavirus təhlükəsi hələ bitməyib. Bu təhlükə risk qrupuna daxil olan yaşlı insanlarımız, analarımız, atalarımız, nənə-babalarımız və xəstə yaxınlarımız üçün daha böyükdür. Əminik ki, xalqımız mənəviyyatımızın əsas dəyərlərindən olan Məhərrəm ayı mərasimlərini onun mahiyyətinə uyğun şəkildə həyata keçirəcək".

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Epidemiya əleyhinə karantin rejiminin tələblərinə ciddi əməl edilməlidir

### Bununla bağlı aidiyyəti qurumlar tərəfindən fəaliyyətinə icazə verilmiş sahələrə nəzarət gücləndirilib

*Əvvəli 1-ci səh.*

Mütəxəssisin fikrincə, karantinin iqtisadi nəticələri dəhşətli dərəcədə çoxdur. Buna görə də düşünülür ki, pandemiya dövründə maska geyilməsi və sosial məsafəyə riayət olunması tamamilə kifayətdir.



### COVID-19 xəstəsi olan 3500-dən çox pasiyent pulsuz dərmanlarla təmin olunub

Azərbaycan virusun üzə çıxdığı ilk zamandan etibarən, qlobal pandemiyanın fəsadlarından maksimum müdafiə olunmaq üçün bütün qüvvəsi ilə ona qarşı səfərbər olub.

Səhiyyə sisteminin pandemiya şərtlərinə uyğunlaşdırılması, modul tipli xəstəxanaların tez bir zamanda inşa edilib istifadəyə verilməsi, müasir laboratoriyaların quraşdırılması, effektiv müalicə və digər bu kimi həyata keçirilən təsirli işlərin sayəsində virusa yoluxan 32 mindən çox vətəndaşımız sağaldılaraq evə buraxılıb.

Eyni zamanda asimptomatik və yüngül simptomlu xəstələrin müalicəsi də yüksək səviyyədə həyata keçirilir. Səhiyyə Nazirliyinin nəzdində yaradılmış işçi qrupunun üzvü İnara Makayeva bildirib ki, indiyə qədər COVID-19 xəstəsi olan 3500-dən çox pasiyent pulsuz dərmanlarla təmin olunub. Cari ilin iyun ayının sonunda yaradılan xüsusi işçi qrupunun əsas vəzifəsi Bakı şəhərinin 87 tibb müəssisəsini əhatə edən 39 sahə məntəqəsinin işini əlaqələndirməkdən ibarətdir.

İ.Makayeva, yaradılan işçi qrupunun COVID-19 xəstələrinin ambulator şəraitdə müalicəsi üçün xüsusi təlimat hazırladığı barədə də məlumat verib. Təşkil olunan iş prosesinə əsasən, hər gün poliklinikalarda test nəticələri müsbət çıxan xəstələrin siyahıları tutulur. Bu xəstələrlə daha sonra telefonla əlaqə saxlanılır və mövcud vəziyyətləri ilə bağlı sorğular keçirilir. Reseptlə təchiz olunmuş dərmanlar birbaşa xəstələrin yaşadıqları ünvana çatdırılır. Pasiyentlər onları 15-20 gün ərzində qəbul edir. Sahə həkimləri gündə iki dəfə xəstələrlə əlaqə saxlayıb, dərman qəbuluna nəzarət edirlər: "İndi biz COVID-19 diaqnozlu pasiyentlərin xəstəxanalara yerləşdirilməsi sayında ciddi azalma müşahidə edirik. Belə ki, ağır xəstələrin sayı xeyli aşağı düşüb. Həmçinin, koronaviruslu xəstələrin reanimasiya və süni ağciyər ventilyasiya cihazlarına qoşulması da azalıb. Ancaq bu, hələ təhlükənin tam bitdiyini bildirmir. Hazırda hamımız - həm həkimlər, həm də xəstələr mümkün qədər diqqətli və nizamlı olmalıyıq ki, müsbət dinamika gələcəkdə də bizi sevindirməyə davam etsin".

### Fəaliyyətinə icazə verilmiş sahələr üzrə müvafiq qərarlar qəbul edilib

Koronavirusun ölkə ərazisində nəzarətolunan həddə olması sərt karantin rejimindən mərhələli şəkildə yumşaldılmalara keçidə zəmin yaradıb. Belə ki, avqustun 5-dən SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Avqustun 10-dan iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib. Müvafiq qərara əsasən, sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində qeyd olunan tarixdən etibarən bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və "Mall"lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilən məhdudiyyətlər aradan götürülüb. Ötən gündən isə ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verilib.

Nazirlər Kabineti fəaliyyətinə icazə verilmiş sahələr üzrə xüsusi karantin, zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərə dair müvafiq qərarlar qəbul edib. Bununla bağlı, İqtisadiyyat Nazirliyi sahibkarlıq subyektlərinin nəzərinə çatdırıb ki, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının tələblərinə ciddi əməl edilməlidir. Karantin rejiminin tələblərinin yumşaldılması şəraitində bu məsələlər xüsusilə aktuallaşdığından, nazirlik və onun müvafiq qurumları tərəfindən bu tələblərə əməl edilməsi vəziyyətinə ciddi nəzarət olunacaqdır. Qaydaların pozulması halları nəzarət aparan strukturların tələbi əsasında dərhal aradan qaldırılmalıdır, əks halda, nəzarət qrupları təsərrüfat obyektinin bağlanmasını tələb edə bilərlər.

### Nəzarət-profilaktik tədbirlər gücləndirilib

Eyni zamanda, fəaliyyətinə icazə verilmiş sahələr üzrə xüsusi karantin, zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərin tam və hərtərəfli təmin olunması üçün polis və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən nəzarət-profilaktik tədbirlər gücləndirilib.

Bakı şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətindən verilən məlumata görə, istehsal, xidmət və ictimai iaşə sektorlarında müştərilərin qəbulu, xidmətin sanitar-epidemioloji normalara uyğun aparılması və insanlar arasında sosial məsafənin qorunması məqsədilə paytaxtın bütün ərazilərində naryad qrupları təlimatlandırılıb.

Paytaxt sakinlərinin diqqətinə çatdırılıb ki, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə və insanlar arasında ara məsafəsinə dair tələblərə əməl edilməməsi İnzibati Xətalar Məcəlləsinin 211.2-ci maddəsi ilə, qalan digər tələblərin pozulması isə 211.1-ci maddəsi ilə inzibati xətaya səbəb olur. Mövcud qayda və tələblərə əməl etməyən, fəaliyyətinə icazə verilən sahibkarlıq subyektlərinin və onların vəzifəli şəxsləri barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcək.

Mütəxəssislərin və aidiyyəti qurumların da xəbərdarlıq etdiyi kimi, yumşaldılmaları virusun yox olması kimi dəyərləndirib, əvvəlki həyat normaları ilə yaşayıb, fəaliyyət göstərməyə çalışmaq qətiyyən yolverilməzdir.

Buna görə də infeksiyaya qarşı əldə edilən müsbət tendensiyanı qorumaq üçün daha diqqətli olmalı, qoyulan tələblərə əməl edərək virusun yenidən yayılmasına imkan verməməliyik.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




## Azərbaycanda koronavirus infeksiyasından daha 159 nəfər sağalıb, 131 nəfər yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 159 nəfər sağalıb, 131 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 34 min 474 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 32 min 201 nəfər müalicə olunaraq sağalıb, 509 nəfər vəfat edib. Aktiv xəstə sayı 1764 nəfərdir.

Ötən müddət ərzində 843 min 269 test aparılıb. Dünənki test sayı isə 6361-dir.

## Paytaxt üzrə koronavirusa ən çox yoluxma halları Binəqədi, Xətai, Sabunçu və Yasamal rayonlarında qeydə alınıb

Azərbaycanda avqustun 3-dən 9-dək olan həftədə yeni növ koronavirus (COVID-19) infeksiyasından 3251 nəfər sağalıb, 1125 yoluxma faktı qeydə alınıb. Bununla yanaşı, həmin həftə koronavirusdan 28 nəfər vəfat edib.



AZƏRTAC koronavirusinfo.az saytına istinadla xəbər verir ki, son statistikaya əsasən ölkə üzrə yoluxma hallarının 56,2 faizi paytaxtın payına düşür. Bundan başqa, yoluxma faktlarının 15,9 faizi Abşeron rayonunda, 10 faizi Aran rayonlarında, 6,6 faizi Gəncə-Qazax bölgəsində, 4,4 faizi Lənkəranda, 1,9 faizi Quba-Xaçmaz zonasında, 1,7 faizi Dağlıq Şirvan və Şəki-Zaqatalada, 1 faizi Yuxarı Qarabağda, 0,05 faizi Naxçıvan Muxtar Respublikasında müşahidə olunub. Ölkə xaricindən idxal olunma halı isə 0,8 faiz təşkil edir.

Bakı şəhərinin rayonları arasında ən yüksək yoluxma göstəriciləri Binəqədi, Xətai, Sabunçu və Yasamal rayonlarında qeydə alınıb. Belə ki, həmin rayonlar üzrə yoluxma göstəriciləri müvafiq olaraq 14,2, 12,2, 11,9 və 11,8 faiz təşkil edir. Paytaxtın digər rayonlarına gəlincə, yoluxma hallarının 9,2 faizi Nəsimi, 8,4 faizi Nərimanov, 8,1 faizi Suraxanı, 7,3 faizi Qaradağ, 7,2 faizi Nizami, 4,9 faizi Xəzər, 4,5 faizi Səbail, 0,3 faizi Pirallahı rayonlarının payına düşür.

## Binəqədi rayonunda sanitar-epidemioloji tələblərə riayət olunmasına ciddi nəzarət edilir

Paytaxtın Binəqədi rayonunda fəaliyyətinə icazə verilmiş sahələr üzrə xüsusi karantin, sosial davranış qaydalarının və sanitar-epidemioloji tələblərin təmin olunması üçün nəzarət-profilaktik tədbirlər keçirilib.

Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, rayon icra hakimiyyətinin, gigiyena və epidemiologiya mərkəzinin və polis idarəsinin əməkdaşları tərəfindən xidmət və ictimai iaşə sektorlarında müştərilərin qəbulu, xidmətin sanitar-epidemioloji normalara uyğun qurulması və insanlar arasında sosial məsafənin qorunması məqsədilə kafe və restoranlarda xidmət personalı ilə söhbətlər aparılıb.







Mövcud qayda və tələblərlə bağlı sahibkarlıq subyektlərinin və onların vəzifəli şəxsləri zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji normalarla bağlı məlumatlandırılıb. Paytaxtda ictimai iaşə sektorunda açıq hava sahələrində müştərilərə xidmətlərin həyata keçirilməsi zamanı epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının tələblərinə ciddi əməl olunmasına nəzarət davam etdirilir.

# “Qarabağ” böyükhesablı qələbə ilə növbəti mərhələdə





Dünən UEFA Çempionlar Liqasında 1-ci təsnifat mərhələsinin görüşləri keçirilib. Turnirdə mübarizə aparan təmsilçimiz “Qarabağ” Tofiq Bəhramov adına Respublika stadionunda Şimali Makedoniya təmsilçisi “Sileks”lə qarşılaşıb. UEFA-nın qərarına əsasən təsnifat mərhələləri bir oyundan ibarət olduğundan, matçın qalibi 2-ci təsnifat mərhələsinə yüksəlib.

Ukraynalı baş hakim Yaroslav Kozıkanın start fitindən sonra görüşə sürətli başlayan Ağdam təmsilçisi 11-ci dəqiqədə Xayme Romeronun qolu sayəsində hesabda irəli çıxdı. Boş tribunalar önündə oynamasına baxmayaraq, qarşılaşmada nəzarəti özündə saxlayan Qurban Qurbanovun yetirmələri 40-cı dəqiqədə Vild-Donald Geryenin qolu sayəsində hesab arasındakı fərqi iki topa çatdırdı.

Fasilədən sonra da üstünlüyünü davam etdirən Ağdam klubu 51-ci dəqiqədə Vild-Donald Geryenin, 80-ci dəqiqədə isə Mahir Emrelinin vurduğu qollar sayəsində görüşdə yekun hesabı müəyyənləşdirdi - 4:0.

Qeyd edək ki, “Qarabağ”ın UEFA Çempionlar Liqasının 2-ci təsnifat mərhələsindəki rəqibi “Şerif” (Moldova) - “Fola” (Lüksemburq) matçının qalibi olacaq.

# *Müdafiə Nazirliyi:* “Hər bir əsgər hərbi xidmətdə olduğu müddətdə peşəkar hərbi həkimlər tərəfindən müayinə və müalicə edilir”

Müdafiə Nazirliyi müddətli həqiqi hərbi xidmətdə olan Yaqublu Rəhim Tofiq oğlunun hərbi xidmətdən əvvəl futbol oynayarkən dizindən aldığı travma ilə əlaqədar guya hərbi hissədə müalicə edilmədiyi və əməliyyata ehtiyac olması barədə sosial şəbəkələrdə yayılan məlumatlara münasibət bildirib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, hərbi xidmətdə olan hər bir hərbi qulluqçunun ailə vəziyyəti, sosial statusu, cəmiyyətdə tutduğu mövqeyi və digər amillərdən asılı olmayaraq onlar nizamnamələrin tələblərinə uyğun qaydada xidmət keçir və komandanlıq tərəfindən eyni diqqət və qayğı ilə əhatə olunurlar.

“2020-ci ilin yanvar ayında hərbi xidmətə çağırılmış əsgər R.Yaqublu ilə bağlı bildiririk ki, o, hazırda hərbi xidmətdədir və xidmətini normal şəraitdə davam etdirir. Xidmətlə bağlı hər hansı bir narazılığının olmadığını özü də etiraf edir.

Hərbi xidmətdən əvvəl sol ayağının diz nahiyəsindən aldığı travma ilə bağlı o, cari ilin fevral, aprel və iyul aylarında bir neçə dəfə hərbi hospitalda hərbi həkim-travmatoloqlar tərəfindən müayinə olunub. Diaqnozlar əsasında bu travmanın xidmətə maneə yaratmadığına, hər hansı əməliyyata ehtiyac olmadığına dair əsgərin tibb kitabçasında müvafiq qeydlər aparılıb. Bununla belə, əsgər R.Yaqublu müayinə olunması üçün sabah yenidən hərbi tibb müəssisəsinə göndəriləcək.

Qeyd edirik ki, hər bir hərbi qulluqçunun özünün və ailə üzvlərinin istənilən müraciətinə həssaslıqla yanaşılır, məsələnin dərhal araşdırılaraq müsbət həlli istiqamətində müvafiq tədbirlər görülür. Hərbi xidmətdə olduğu müddətdə zərurət yarandıqda hər bir əsgər peşəkar hərbi həkimlərimiz tərəfindən müayinə və müalicə olunurlar.

Bir daha bildiririk ki, sosial şəbəkələr vasitəsilə məsələnin siyasiləşdirilərək hərbi xidmətə müdaxilə olunması cəhdini qəti surətdə rədd edir və bu kimi hərəkətləri qəbuledilməz hesab edirik”, -deyə məlumatda bildirilib.



# Çində koronavirusdan ilk peyvənd patentləşdirilib

Çin Xalq-Azadlıq Ordusunun Hərbi Tibb Elmləri Akademiyası və “CanSino Biologics” şirkəti yeni koronavirusa qarşı birgə hazırladıqları peyvəndi patentləşdirmişlər.

Söhbət adenovirus vektoruna əsaslanan ad5-nCoV adlı rekombinant vaksin haqqında gedir.

Qeyd edilir ki, hazırlanması asan olan peyvənd qısa müddət ərzində kütləvi istehsala buraxılacaq.

Heyvanların üzərində aparılmış test sınaqları onun yaxşı immunogenliyini göstərdikdən sonra Çində ilk bu peyvəndin klinik testləri üçün razılıq verilmişdir.

# Beynəlxalq aləm

## Livanın paytaxtında fövqəladə vəziyyət rejimi uzadılıb



Livan hökumətinin baş katibi Mahmud Makiyə partlayış nəticəsində zərər çəkmiş Beyrutda fövqəladə vəziyyət rejiminin uzadıldığını bəyan edib. Bu barədə “Rosbalt” agentliyi xəbər verir.

Məlumata görə, fövqəladə vəziyyət rejimi ən azı bir ay - sentyabrın 18-dək qüvvədə olacaq. Qərar vəziyyətin bütün mürəkkəbliyini nəzərə alaraq, prezidentin və baş nazirin razılığı ilə qəbul edilib.

Beyrut limanında güclü partlayış nəticəsində həlak olanların sayı 178 nəfərdir, lakin axtarış-xilasetmə işləri hələ başa çatmayıb.

Həsən Diabın rəhbərlik etdiyi Livan hökuməti partlayışdan sonra baş verən kütləvi etirazların fonunda istefa verib.

## Yəməndə 3 separatçı öldürülüb, 13 nəfər yaralanıb



Yəmənin cənubunda yerləşən Abyan şəhərində hökumət qüvvələri ilə Birləşmiş Ərəb Əmirliklərinin dəstəklədiyi Cənub Keçid Şurasının separatçıları arasında toqquşmalar baş verib. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Abyandakı “ər-Razi” Xəstəxanasının nümayəndələrinin bildirdiyinə görə, toqquşmalar nəticəsində üç separatçı öldürülüb, daha 13 nəfər yaralanıb.

Ətraflı məlumat verilmir.

Eyni zamanda Cənub Keçid Şurasının nümayəndəsi Məhəmməd ən-Nakib Tvitter-də yazıb ki, hökumət qüvvələri Abyanın inzibati mərkəzi olan Zəncibar şəhərinin şimal və şərqindəki Şeyx Səlim və Ət-Tariya rayonlarını artilleriya atəşinə məruz qoyub.

## Filippində 6,7 bal gücündə zəlzələ baş verib

Dünən Filippinin Bikol regionunda 6,7 maqnitudalı zəlzələ baş verib.

ABŞ-ın Geoloji Xidmətinin məlumatına görə, zəlzələnin episentri Masbate şəhərinin sahillərindən 60 km cənub-şərqdə olub.

Yeraltı təkanlar 10 km dərinlikdə qeydə alınıb.

Tələfat və dağıntılar barədə hələlik məlumat daxil olmayıb.

Sunami xəbərdarlığı da edilməyib.

# Ermənistanın təcavüzkar siyasəti növbəti dəfə ifşa edildi

*Əvvəli 1-ci səh.*

Bu günlərdə Ermənistan Xarici İşlər Nazirliyi Şərqi Aralıq dənizi ilə bağlı açıqlama verərək Türkiyəyə qarşı ittihamlarla çıxış edib. Ermənistanın bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid törədən təcavüzkar siyasətinin nəticələrini aradan qaldırmaq əvəzinə, bu kimi cəfəng açıqlamalarla çıxış etməsi bir daha rəsmi Yerevanın əsl niyyətinin öz işğalçı siyasətini gizlətmək və digər ölkələrə qarşı yalan və saxta ittihamlar irəli sürmək olduğunu nümayiş etdirir.

Türkiyə Xarici İşlər nazirinin sözçüsü Hami Aksoy deyib ki, Ermənistanın Sevr sazişi haqqında yersiz mövqe bildirməsindən sonra Şərqi Aralıq dənizi ilə bağlı rəy verməyə çalışmasını bu ölkənin növbəti dəfə həddini aşması və məsuliyyətsizliyi hesab edirik. Burada məsələ Sevan gölü (Göyçə gölü) deyil, Şərqi Aralıq dənizidir. Türkiyə rəsmisi qeyd edib ki, necə ki, Fransanın, Birləşmiş Ərəb Əmirliklərinin Şərqi Aralıq dənizi ilə heç bir əlaqəsi yoxdur. Bu addım Türkiyəyə qarşı qurulmağa çalışılan növbəti məkrli ittifaqa Ermənistanın da daxil olması təəssüratına əsas verir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, Türkiyəyə qarşı ərazi iddialarını dövlət gerbində əks etdirən, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ilə yaxındır ki, hərbi işğal altında saxlayan Ermənistanın bu açıqlaması həm gülüncdür, həm də riyakarlığın son həddi və özünə aid olmayan məsələlərə müdaxilə cəhdidir. Ermənistanın Şərqi Aralıq dənizindəki vəziyyətdən qətiyyən xəbəri yoxdur və onun bəyanatının yeganə səbəbi mövzunun Türkiyəyə aid olmasıdır.

H.Hacıyev bildirib ki, Ermənistan rəhbərliyi başa düşməlidir ki, diplomatiya ciddi bir sahədir və burada boğazdan yuxarı, məsuliyyətsiz bəyanatlara yer yoxdur. Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən çox düzgün qeyd olunmuşdur ki, Ermənistan Sevan adlandırdığı, amma əsl tarixi adı Göyçə olan gölü Aralıq dənizi ilə qarışıq salmamalıdır.

Xatırladaq ki, bir müddət əvvəl Ermənistanda tanınmış ictimai xadim olan Georgi Vanyan rəsmi Yerevanı öz xalqını girov saxlamaqda ittiham etmişdi. Onun fikrincə, Ermənistan hakimiyyətinin hazırkı siyasəti Azərbaycanla sülhə nail olmağa imkan vermir və ona görə bu siyasəti kökündən dəyişmək lazımdır. Digər erməni ziyalısı, kinorejissor Tiqran Xzmalyan da bildirmişdi ki, Ermənistanın üzləşdiyi bütün problemlərin kökündə mövcud hakimiyyətin yanlış siyasəti dayanır: “Sovet İttifaqından miras qalmış pis nə varsa, Ermənistanda qorunub saxlanıb. Biz sosial bərabərlik və sosial müdafiə baxımından müsbət nailiyyətlərdən asanlıqla imtina etmişik, amma bunun əksinə, xüsusi xidmət orqanlarının özbaşınalığından və digər qüsurlardan xilas olmamışıq”. Xzmalyanın sözlərinə görə, Ermənistan üçün ən böyük təhlükə Türkiyə və ya Azərbaycan deyil, ölkədə iqtidarı qəsb etmiş hakim rejimdir.

Görünən odur ki, indi daha ayıq başla düşünməyə başlayan bəzi erməni ziyalılarından fərqli olaraq, Paşinyan iqtidarı sələfləri kimi hələ də reallıqla barışmaq niyyətində deyil. Əksinə, mövcud Ermənistan hakimiyyəti destruktiv mövqe nümayiş etdirərək ölkəni daha böyük problemlər burulğanına sürükləyir, işğalçılıq niyyətini açıq bəyan etməklə region ölkələri ilə münasibətlərini daha da pisləşdirir, qeyri-konstruktiv mövqelərindən geri çəkilmək niyyətlərində olmadığını yenidən nümayiş etdirir.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistan rəsmilərinin bu günlərdə Sevr müqaviləsi ilə bağlı verdikləri bəyanatlar bir daha göstərir ki, bu ölkə keçmişin girovu olmaqdan qurtulmaq, əsassız nifrəti kənara qoymaq və qonşuları ilə sülh şəraitində yaşamağı öyrənmək iqtidarında deyil. Qardaş Türkiyə beynəlxalq hüququn norma və prinsiplərini və öz milli maraqlarını rəhbər tutaraq Şərqi Aralıq dənizində fəaliyyətini həyata keçirir. Bildirib ki, “Oruc Rəis” seysmik gəmisinin də təyinat məntəqəsinə yan alması qanunauyğun xarakter daşıyır. Biz Türkiyənin mövqeyini birmənalı dəstəkləyirik. Türkiyə beynəlxalq hüquqa uyğun olaraq bölgədə öz haqqını, maraqlarını və mənfəətini qoruyur.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu gün Azərbaycanla Türkiyəni təkcə ortaq mənəvi və milli dəyərlər birləşdirmir. Bizi həm də siyasi mahiyyət daşıyan ortaq iqtisadi layihələr, qarşıya qoyulan eyni hədəflər və müştərək siyasi maraqlar birləşdirir. Bütün bunlar onu göstərir ki, sarsılmaz olan Azərbaycan-Türkiyə müttəfiqliyinin və birliyinin böyük gələcəyi var.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

◆ Reportaj

# Vəndamdan Amerikaya uzanan yol





Qəbələ rayonunun Vəndam qəsəbə sakini, 17 yaşlı Səidə Yaşarlı xarici ölkələrdən birində yaşayan dostu ilə telefonla danışır: *Salam, necəsən? ...Biz komanda olaraq səninlə daha yaxşı anlaşırdıq. Azərbaycanın mədəniyyətinə, tarixinə dair təşkil etdiyimiz gecələrdə sən hər zaman dəstək olmusan... Bilirsən, Azərbaycanın əraziləri ermənilər tərəfindən işğal olunub. Düşmən ötən ay da təxribat törətdi, şəhidlərimiz oldu. Onların arasında mənim yaşadığım qəsəbənin sakinləri də var. Mən bu barədə sənə daha geniş və ətraflı məlumatlar göndərəcəyəm... Sağ ol...*

AZƏRTAC xəbər verir ki, ötən il orta məktəbi bitirdikdən sonra ali təhsil üçün imtahan verərək 663 bal toplayan Səidə tələbəlik həyatından əvvəl qatıldığı beynəlxalq proqram çərçivəsində Amerika Birləşmiş Ştatlarına yola düşüb. İndiana ştatında 12-ci sinfi oxumaqla yanaşı, tibb bacısı ixtisası üzrə də təhsil alıb. Bununla bərabər, yaşadığı ştatın klinikalarında könüllü kimi xidmət də göstərib. Lakin bu gənc qız öz işini bununla bitmiş hesab etmir. Vaxtaşırı keçirilən görüşlərdə, tədbirlərdə, xidmət etdiyi könüllü proqramlarında Azərbaycan həqiqətlərini də dilə gətirib, beynəlxalq aləmə çatdırıb.

Səidə Yaşarlı: *“Təqdimatlarda, tədbirlərdə ölkəmizin tarixindən, mədəniyyətindən danışır, torpaqlarımızın işğal altında olduğunu vurğulayırdım. Əsasən gənclərlə ünsiyyətdə olurdum. Onların çoxu bu münaqişənin mahiyyətindən xəbərsizdir. Çalışırdım ki, onları bu barədə ətraflı məlumatlandırım. Amerikada olduğum müddətdə onların musiqiləri, yeməkləri - bunlar mənə çox maraqlı gəlirdi. Çalışırdım ki, bu fərqliliyə alışım...”.*

Təhsil proqramı yekunlaşdıqdan sonra ABŞ-da təhsil alan azərbaycanlı tələbələrlə birgə ötən ay ölkəmizə qayıdan Səidə ali təhsil almaq üçün bu il ölkəmizdə yenidən imtahanlarda iştirak edib. O, artıq birinci mərhələdə kifayət qədər bal toplayıb. İmtahanların ikinci mərhələsində də lazımi balı toplayaraq Tibb Universitetində müalicə ixtisasına yiyələnməyi və insanların sağlamlığının keşiyində durmağı qarşısına məqsəd qoyub.

O, boş vaxtlarında bacı və qardaşına dərslərində kömək edir, ABŞ xatirələrindən danışır. Eyni zamanda, xarici ölkələrdə yaşayan dostları ilə əlaqə yaradaraq Azərbaycan həqiqətlərini onların diqqətinə çatdırır.

Səidə qarşıdakı illərdə təhsilini xaricdə davam etdirməklə Azərbaycan həqiqətlərini daha geniş coğrafiyada yaymağı düşünür.

Qeyd edək ki, ixtisasca ingilis dili müəllimi olan Səidə Yaşarlının anası Mədinə Qasımova da bir neçə il əvvəl Təhsil Nazirliyinin xətti ilə ABŞ-da mübadilə proqramında iştirak edib.


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

***açıq tender elan edir***

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - “Aztelekom” MMC tərəfindən 2021-ci ilin sonunadək vəkil xidmətlərinin satın alınması.

**İştirak haqqı: 30 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını “ASAN ödəniş” sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

Müəssisənin adı:

**“Aztelekom”Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin, qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 08 sentyabr 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 16 sentyabr 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 17 sentyabr 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti sair avadanlığın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər zərfdə möhürlənmiş şəkildə 21 avqust 2020-ci il saat 18:00-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi istismarında olan 14 ədəd nəqliyyat vasitələrinə GPS nəzarət sistemlərinin quraşdırılması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 24 avqust 2020-ci il saat 12:00-dək agentliyin Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı, 86 ünvanında yerləşən ofisinə təqdim olunmalıdır (telefon: 012 525-50-27, dost_info@sosial.gov.az). Zərflər 24 avqust 2020-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları DOST Agentliyinin AZ1073 Bakı şəhəri, İsmayıl Qutqaşınlı, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az portalında 19.05.2020-ci il tarixdə elan edilmiş Stansiya akkumulyatorları və UPS-lərin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi “MAYBO” MMC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “MAYBO” MMC arasında 12.08.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 4 LOT üzrə keçirilir:

**LOT 1 - Xətt şəbəkəsində istifadə etmək üçün optik cihaz və alətlərin satın alınması.**
**LOT 2 - Xətt təsərrüfatında istismar işləri üçün tələb olunan materialların satın alınması.**
**LOT 3 - Elektrik və məişət təsərrüfat mallarının satın alınması.**
**LOT 4 - Xətt təsərrüfatında istifadə etmək üçün su pompası və ehtiyat hissələrinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1 üzrə - 350 (üç yüz əlli) manat (ƏDV daxil)**
**LOT 2 üzrə - 250 ( iki yüz əlli) manat (ƏDV daxil)**
**LOT 3 üzrə - 100 ( bir yüz) manat (ƏDV daxil)**
**LOT 4 üzrə - 100 (bir yüz) manat (ƏDV daxil)**
İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına “ASAN ödəniş” portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **09 sentyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **16 sentyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **17 sentyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC metropolitenin III yeni (“Bənövşəyi”) xəttinə aid “Avtovağzal”- “Xocasən” elektrik deposu mənzil tunellərində və 1A saylı Ventilyasiya şaxtasında yanğın-texniki su xəttinin çəkilməsi işlərinin satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1.** “Bakı Metropoliteni”nin III yeni (“Bənövşəyi”) xəttinə aid “Avtovağzal”- “Xocasən” elektrik deposu mənzil tunellərində və 1A saylı Ventilyasiya şaxtasında yanğın-texniki su xəttinin çəkilməsi işlərinin satın alınması

**İştirak haqqı - 250 manat**

**Hesabın adı: “BAKI METROPOLİTENİ” QSC**
**Həsab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09 sentyabr 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17 sentyabr 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 sentyabr 2020-ci il saat 14:30-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## “Azərsu” ASC daxili vəsaiti hesabına
## *açıq tender elan edir*

“Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə “Kaeser” markalı kompressorların təmir işlərinin satın alınması

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).**

Malgöndərənlər (podratçılar) müəyyən edilən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tender təklifini dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı **200** manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*- tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
*- malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11sentyabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **21sentyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **22 sentyabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”
### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
41,60 (qırx bir manat altmış qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

Azercell
## abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 20.08.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## İlin birinci yarısında qeydə alınmış cinayət işləri üzrə dəymiş maddi ziyanın 46 milyon manatlıq hissəsi ödətdirilib

Bu ilin birinci yarısında respublikada qeydə alınmış cinayət işləri üzrə dəymiş maddi ziyanın 46 milyon manatlıq hissəsinin ödətdirilməsi prokurorluq orqanları tərəfindən təmin olunub.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az portalında 09.06.2020-ci il tarixdə elan edilmiş təmizlik təsərrüfat mallarının satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi “İNTELLEKT M.A” MMC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “İNTELLEKT M.A” MMC arasında 12.08.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az portalında 15.05.2020-ci il tarixdə elan edilmiş təmizlik təsərrüfat mallarının satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi “TƏLƏT” FİRMASI müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “TƏLƏT” FİRMASI arasında 17.08.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Sumqayıt Kimya Sənaye Parkı” MMC tərəfindən aqroparkların və Sumqayıt Kimya Sənaye Parkının Peşə Təhsil Mərkəzinin təqdimat roliklərinin hazırlanması işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 13 avqust 2020-ci il tarixli qərarına əsasən, “Reklamda Özünü Tənzimləmə Agentliyi” MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Radiotezliklər İdarəsi tərəfindən 13.05.2020-ci il tarixdə yeni katriclərin alınması, dolumu və texniki xidmətlərin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə “Caspian Supplies AZE” MMC qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

“İcraçı Kredit Agentliyi” Məhdud Məsuliyyətli Cəmiyyət Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi iş yoldaşları

**SAFURƏ CAHANGİR QIZI İBRAHİMXƏLİLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7276
Sifariş 1938
Qiyməti 40 qəpik